


## Taqib Şaker: “Erməni işğalçılarının Qarabağda törətdiyi vandalizm məndə onlara qarşı kəskin qəzəb hissi doğurdu”

2

SƏS

№ 044 (6485) 10 mart 2022-ci il. Qiymətі 60 qəpik

# “Böyük Britaniya Azərbaycanın əsas ticarət tərəfdaşıdır”

2



*Prezident İlham Əliyev dünən Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib. Dövlətimizin başçısı bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladıb, bu münasibətlə...*

# Ermənilərin Azərbaycana qarşı “Brtitaniya sanksiyası” xəyalı necə puç oldu?

4



***Məlum olduğu kimi, martın əvvəlində Böyük Britaniyanın deputatı, erməni lobbisinə işləyən və Avropa məkanında ermənilərin maraqlarını təbliğ edənlərdən biri olan Marqaret Hodce Azərbaycana qarşı sanksiya tətbiq edilməsini tələb etmişdi. Bütövlükdə isə siyasi korrupsiyaya bulaşdığını məhz həmin tələbi ilə özünüifşa edən britaniyalı deputat eyni zamanda, ölkəsinin maraqlarından çox erməni maraqlarına xidmət etdiyini aşıq-aşkar təzahür etdirmişdi.***

## Tahir Budaqov Türkiyəyə səfər edəcək



*Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 11-13 mart tarixlərində Antalya Diplomatiya Forumunda iştirak etmək üçün Türkiyədə səfərdə olacaq.*

## Qo Min: “Çin və Azərbaycan arasında əməkdaşlıq sürətlə inkişaf edir”

8



Son illər Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi qayğısı və köməyi sayəsində ikitərəfli dostluq və əməkdaşlıq münasibətləri müsbət tendensiyanı qoruyub saxlayıb.

## Rusiya mağazalarında ƏRZAQ ŞOKU!



## Ev almaq istəyənlər üçün MÜHÜM XƏBƏR - Qaydalar dəyişdi



## 10 Mart Milli Teatr Günüdür

6




Azərbaycan milli teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin, dünyagörüşü ilə bağlıdır. Azərbaycan xalq teatrı yarandığı zamandan realist özəllik daşımış, keşməkeşli illər yaşayaraq zamanın mühakiməsində...

## Qaydaların yumşaldılması nələrə səbəb olacaq?

*“Bu mövzu qlobal səviyyədə bütün dünyada aktuallığını saxlamaqda davam edir. İki il ərzində dünyanın müxtəlif ölkələri koronavirusa qarşı mübarizədə fərqli modellər tətbiq ediblər.*

5





## Qlobal ərzaq böhranı və Azərbaycanın sığortalanma potensialı

15

*Dünya yeni ərzaq böhranı dövrünə qədəm qoymaqdadır. Ərzaq məhsullarının qiyməti durmadan bahalaşır.*



## Rusiya himayəsindən məhrumiyyət qorxusu

7

Ermənistanın gələcəyini Rusiyasız görməyən ermənilərin sayı günü-gündən artmaqdadır. İndi ermənilərin böyük əksəriyyəti yenə də böyük...

# “Böyük Britaniya Azərbaycanın əsas ticarət tərəfdaşıdır”

*Prezident İlham Əliyev dünən Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib. Dövlətimizin başçısı bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladıb, bu münasibətlə Böyük Britaniyanın Baş naziri Boris Conson tərəfindən ona ünvanlanmış səmimi məktubu xüsusilə qeyd edib və özünün də Böyük Britaniyanın Baş nazirinə diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə səmimi məktub göndərdiyini qeyd edib.*



Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd edib.

Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu bildirib.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma iqtisadi, ticarət, enerji sahələrində ölkələrimiz arasında əməkdaşlıq və bu xüsusda BP-nin Azərbaycandakı fəaliyyəti və onun genişləndirilməsi, BP ilə ölkəmizin bərpa olunan enerji sahəsində əməkdaşlığının inkişaf etdirilməsi məsələlərinə toxunub.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə məlumat verib. Həmin ərazilərdə, ilk növbədə, infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirib.

## “Biz birlikdə gələcəyə baxmaq yolunu seçmişik”



***İsrail Prezidenti İsxak Hersoq Türkiyədə rəsmi səfərdədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İsrail Prezident İsxak Hersoq Ankarada təkbətək görüşüblər. İsrailli həmkarı ilə səmərəli müzakirələr apardıqlarını bildirən Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, bu tarixi səfərin Türkiyə-İsrail münasibətlərində yeni dönüş nöqtəsi olacağına inanır. Əməkdaşlıq əlaqələrini yüksək dəyərləndirdik. Həmçinin Fələstin məsələsində həssaslığımızı bir daha açıq şəkildə ortaya qoyduq.***

Yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən İsrail Prezidenti İsxak Hersoq deyib ki, məqsədimiz ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərin genişlənməsinin təməlini qoymaqdır. Biz birlikdə gələcəyə baxmaq yolunu seçmişik. Anlaşmazlıqları gələcəyə baxaraq aradan qaldıracağıq. Dövlət başçıları enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığa hazır olduqlarını bildiriblər. Həmçinin Türkiyə hökumət üzvlərinin İsrail və Fələstinə səfəri ilə bağlı razılıq əldə olunub. Qeyd edək ki, bu, İsrail Prezidenti qismində son 14 ildə Türkiyəyə ilk gəlişdir.

## Taqib Şaker: “Erməni işğalçılarının Qarabağda törətdiyi vandalizm məndə onlara qarşı kəskin qəzəb hissi doğurdu"

Erməni işğalçılarının 30 ilə yaxın bir müddətdə işğal altında saxladığı Qarabağda törətdiyi vandalizm məndə onlara qarşı kəskin qəzəb hissi doğurdu.

AZƏRTAC xəbər verir ki, bu sözləri Malayziyanın nüfuzlu "Utusan Malaysia" qəzetinin bu yaxınlarda Qarabağa səfərdən qayıtmış əməkdaşı Taqib Şaker qəzetin yaydığı məqaləsində yazıb. "Azərbaycanın iki üzü" sərlövhəli məqalədə müəllif səfər zamanı qarşılaşdığı təzadlarla bağlı fikirlərini malayziyalı oxucularla bölüşüb. Bildirib ki, Azərbaycan Respublikasının Diaspora İş Üzrə Dövlət Komitəsi tərəfindən təşkil edilən səfərin əsas məqsədi cari ildə 30-cu ildönümü qeyd edilən Xocalı soyqırımı ilə bağlı tədbirlərə qatılmaq idi.

Müəllif Bakıya ilk səfəri zamanı Heydər Əliyev adına Beynəlxalq Hava Limanında tanış olduğu yaponiyalı yutuber Kazuyasu İşida ilə birlikdə şəhərin müasir mənzərələrini seyr edərək mərkəzdə yerləşən otelə gəldiklərini qeyd edir. Otelə yerləşdikdən dərhal sonra ətrafla tanış olmaq üçün gəzintiyə çıxdıqlarını bildirir. İlkin olaraq da gəzinti üçün Bakının mərkəzi küçəsi hesab edilən Nizami küçəsinə getdiklərini qeyd edir. Bildirir ki, həmin küçə dünyaca məşhur Azərbaycan şairi, 1141-ci ildə Gəncədə anadan olmuş Nizami Gəncəvinin adını daşıyır. Nizami Gəncəvinin əsərlərinin Malayziyada da yaxşı tanındığını, onun "Leyli və Məcnun" poemasının isə dünyanın ən qədim və məşhur məhəbbət hekayələrindən biri olduğunu xatırladır. Təəssüflə bildirir ki, dünyada Nizami Gəncəvinin məhz Azərbaycan xalqının nümayəndəsi olduğunu bilənlər azdır.

Bakının gözəlliklərinə heyran qalan T.Şaker onu London ilə müqayisə edərək, Azərbaycan paytaxtının öz möhtəşəm arxitekturası ilə Avropa şəhərləri ilə bir sırada durduğunu qeyd edir. Həmçinin şəhərin küçələrinin onu öz təmizliyi ilə təəccübləndirdiyini vurğulayır. Yerli sakinlərin də qonaqpərvərlikləri və səmimilikləri ilə seçildiyini qeyd edir. Şəhər küçələrində hərəkət edən avtomobillərin sayının çoxluğuna diqqət çəkən malayziyalı jurnalist buna baxmayaraq, sürücülərin yüksək mədəniyyətləri ilə seçildiklərini, qaydalara ciddi əməl etdiklərini və avtomobillərin əksəriyyətinin dünyanın aparıcı şirkətlərinin istehsalı olduqlarını bildirir. Vurğulayır ki, Azərbaycanda səfərdə olduğu müddətdə bir dəfə də olsun yol-hərəkət hadisəsi ilə qarşılaşmadı.


Utusan Malaysia
MediaMulia
TERKINI NASIONAL EKONOMI LUAR NEGARA GAYA SUKAN RENCANA PREMIUM
KEMBARA PREMIUM SANTAI SERI
Dua wajah Azerbaijan
POPULAR

Müəllif səfərin ikinci günü Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra erməni işğalından azad etdiyi Qarabağa yola düşdüklərini qeyd edir. Yol çox rahat olduğuna görə təqribən 5 saata yaxın davam edən hərəkət zamanı o qədər də yorğunluq hiss etmədiklərini bildirir. Yol boyu qarşılaşdıqları yanacaq doldurma məntəqələrində səyyahlar üçün hər cür şərait yaradıldığını vurğulayır. İşğaldan azad edilmiş ərazilərə çatdıqda isə hələ də ərazinin minalardan təmizlənməsinin davam etməsi səbəbindən buraya girişə ciddi nəzarət olunduğunu qeyd edir. Azərbaycan polislərinin onları gülərüzlə qarşıladıqlarını, pasportlarını sürətlə yoxlayaraq yola saldıqlarını diqqətə çatdırır.

T.Şaker nəzarət məntəqəsini keçdikdən sonra qarşılaşdıqları dağıntıların onlara fərqli təsir bağışladığını, qarşılarında tamamilə özgə Azərbaycanın açıldığını ürək ağrısı ilə qeyd edir. Əvvəlki görüntülərin onlara Avropanı xatırlatdığını, hazırda qarşılarında açılan mənzərənin isə yalnız müasir Suriya ilə müqayisə oluna biləcəyini qeyd edir. Bildirir ki, gördükləri yaşayış məntəqələri hətta Suriyadan da dəhşətli vəziyyətə salınmışdı. Vurğulayır ki, erməni işğalçılarının 30 ilə yaxın bir müddətdə işğal altında saxladığı Qarabağda törətdiyi vandalizm məndə onlara qarşı kəskin qəzəb hissi doğurdu. Buna qədər ermənilərin işğal altında saxladığı torpaqlarda törətdikləri vəhşiliklər barədə kifayət qədər məlumatlı olmadığını qeyd edir. Bütün evlərin, dini və tarixi abidələrin tamamilə məhv edildiyini malayziyalı oxucuların diqqətinə çatdırır.

Müəllif Azərbaycan hökumətinin vətənpərvərliyinin və doğma torpaqlara sevgisinin nəticəsi kimi, azad edilmiş ərazilərin bərpasına milyardlarla rinqit vəsait ayırdığını qürur hissi ilə vurğulayır. Bildirir ki, əraziyə çox qısa müddətdə uzunluğu 100 kilometrdən çox olan asfalt yol çəkilib. Yeni aeroportların və digər infrastrukturun tikintisinə başlanıb. Azərbaycan rəhbərliyinin azad edilmiş ərazilərdə həyata keçirdiyi nəhəng layihələr, səfər zamanı qarşılaşdığı digər məqamlar barədə növbəti məqalələrində bəhs edəcəyini qeyd edən T.Şaker malayziyalı oxucuları bu yazıları diqqətlə izləməyə çağırır.

# Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasında fəal tərəfdaşlıq mövcuddur

*Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus ilə görüşüb*





***Martın 9-da Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus ilə görüşüb.***

SİA xəbər verir ki, görüş zamanı son illər ərzində Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasındakı fəal tərəfdaşlıq nəticəsində ikitərəfli əməkdaşlığın inkişafına yönəlmiş bir çox görüşlərin təşkil olunduğu qeyd edilib, bu tərəfdaşlıq çərçivəsində həyata keçirilmiş layihələr və tədbirlərin ölkədə statistika potensialının gücləndirilməsində, milli statistika sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və ölkə statistikasının inkişafında əhəmiyyəti vurğulanıb.

Dünya Bankı tərəfindən aparılan və 2022-ci ilin iyun ayında təqdimatı planlaşdırılan Azərbaycan üzrə Sistemli Diaqnostik Tədqiqatın (ÖSDT) yenilənməsi və bununla bağlı rəsmi statistika məlumatlarından istifadə barədə müzakirələr aparılıb. Bununla yanaşı, Dövlət Statistika Komitəsinin həyata keçirdiyi ev təsərrüfatları büdcələrinin müayinəsi əsasında Azərbaycanda yoxsulluğun azaldılması və ümumi rifaha nail olma istiqamətində irəliləyişlərin qiymətləndirilməsi üçün gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

## Antalya Diplomatik Formunun əhəmiyyəti

"Antalya Diplomatik Formu müasir beynəlxalq münasibətlər sistemində nizamın formalaşması və siyasi problemlərə aydınlıq gətirilməsi baxımından Türkiyənin təşkil etdiyi ən önəmli tədbirlərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.



Onun sözlərinə görə, burada dünyanı maraqlandıran bir sıra məsələlər müzakirə olunacaq, fikir mübadiləsi aparılacaq: "Eyni zamanda dünyanın, eləcə də Avropanın təhlükəsizlik arxitekturasında bu gün yaranan problemlərə baxış həyata keçiriləcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev də Antalya Diplomatik Formunda iştirak edəcək.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun bu yaxınlarda Bakıya səfəri baş tutmuşdu. Səfər çərçivəsində Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində fəaliyyət göstərən Sərdar Kılıç da səfərdə yer almışdı. Bu onu göstərir ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılmasından Azərbaycan məlumatlıdır. Sərdar Kılıçın səfəri də bunu nümayiş etdirir.

Digər önəmli məsələ isə hazırkı vəziyyətdə Antalya Diplomatik Formunun keçirilməsidir. Bu forumda təbii ki, hazırda davam edən Rusiya-Ukrayna müharibəsinin də həll yolları, beynəlxalq hüququn fundamental prinsiplərinin icra olunması və bununla bağlı olan məsələlərdir. Düşünürəm ki, bu xüsusda bir sıra dövlətlərin mövqeləri də Antalya Forumunda diqqətə çatdırlacaq. Formun keçirilməsinin önəmli nəticələrinin olacağını artıq indidən qeyd etmək olar".

***Səbinə Hüseynli***

## Türkiyə: Ukraynadakı müharibə kontekstində və Azərbaycan reallığı



Ukraynada hərbi əməliyyatlar başladıqdan bir neçə gün sonra beynəlxalq mətbuatda və diplomatik dairələrdə Montrye Konsvensiyası ilə bağlı Türkiyənin hansı mövqe nümayiş etdirəcəyi ilə bağlı fəal müzakirələrə start verildi. Nəticədə qərar qəbul olundu...

Lakin maraqlıdır ki, qərar qəbul edildikdən sonra onunla bağlı həm Ukrayna, həm Rusiya, həm də ABŞ məmnun qaldılar. Görünən isə budur ki, mövcud vəziyyətdə Türkiyə effektli diplomatiya siyasəti nümayiş etdirir və bu siyasət, əsasən, Türkiyə prezidentinin istər hərbi, istərsə də iqtisadi cəhətdən möhkəm iradəsinə söykənir. Ən əsası isə bu, Türkiyə prezidenti Ərdoğanın xarici siyasət baxımından öz sözünün üzərində dayanması faktorudur. Yəni bu gün beynəlxalq siyasi arenada Ərdoğanın istənilən situasiyadan çıxışı üçün hansı bacardığının olduğunu və nə edəcəyini yaxşı bilirlər.

### Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin ardınca beynəlxalq siyasi sistem mexanizmlərində yeni çağırışlar, trendlər yaranır

Bu gün Türkiyə Rusiyaya qarşı tətbiq edilən sanksiyalara qoşulmur, amma Ukraynaya hərbi yardımlarını göndərməkdədir. O cümlədən, danışıqlar üçün meydança da təklif edir. Bütün bu baş verənlər fonunda, daha dəqiq desək, Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin ardınca beynəlxalq siyasi sistem mexanizmlərində yeni çağırışlar, trendlər yaranır və bütün bunların fonunda Ərdoğanın "Dünya beşdən artıq!" şüarı daha da aktuallaşır. Belə ki, bu ədalətli çağırış BMT-nin Təhlükəsizlik Şurasındakı 5 daimi dövlətin hegemoniyasının müasir dünyamız üçün artıq qəbuledilməz olmasına aiddir.

Eyni zamanda, BMT TŞ-da daimi yer alan ölkələr arasında zaman-zaman yaranan, bəzən isə köklü şəkildə yaranan fikir ayrılıqları artıq qarşıdakı zamanda növbəti problemləri ortaya çıxara bilər:

Bu sistem uğursuz fəaliyyəti ilə daha çox yadda qalmağa başlayıb.Regional liderlər BMT TŞ-nın qəbul etdiyi qərarlara əhəmiyyət verməyərək öz ambisiyalarını daha çox yürütməkdə israrlı olduqlarını nümayiş etdirirlər.

Məhz bu kimi artan müstəqil qərarlar və israrlar vasitə ilə bütövlükdə BMT-nin dünyanın qlobal məsələlərdəki əhəmiyyəti azalacaq, yaxud Təhlükəsizlik Şurasının qərarları əhəmiyyətli sayılmayacaq.

Ərdoğanın ədalətli şüarı və Əliyevin qətiyyətli bəyanatları!

Təbii ki, son dövrlərdə dünyanın siyasi arenasında öz əhəmiyyəti ilə seçilən Azərbaycanın da burada rolu böyükdür. Artıq Bakı yeni və çağdaş siyasət reallığında özünün müasir çağırışları və imkanları ilə çıxış edir. Digər tərəfdən, bu gün Azərbaycanın Ermənistanla da həll edilməmiş məsələləri qalmaqdadır. Və söz yox ki, Azərbaycan məhz beynəlxalq hüquq normalarından çıxış etməklə ən sonuncu sözünü deyə bilər və görünür, bunun üçün şərait də yaranmağa başlayıb.

Belə olan halda, Ərdoğanın məşhur və ədalətli şüarı tam yerinə düşür və Bakının yerinə hər hansı ölkələrin qərar verməsi əhəmiyyəti itir. Bu xüsusda, 44 günlük müharibə zamanı Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli çıxışları, habelə bir sıra beynəlxalq struktur və təşkilatları, eləcə də ayrı-ayrı dövlətləri, əsasən də, Ermənistanın işğalçılıq siyasətinə dəstək göstərən tərəfləri haqlı olaraq qınamasını da xatırlatmaq olar.

Ermənistanın qatarın sonuncu vaqonuna çatmasına hələ ki, vaxtı var...

Bu gün Ermənistan anlamalıdır ki, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar heç də BMT TŞ-nın rolu ilə deyil, ayrı-ayrı ölkələrin verdikləri müstəqil qərarlar hesabına reallaşdırılır. Həmçinin, verilən sanksiyalar həm də iqtisadiyyatının mühüm hissəsinin asılı olduğu Ermənistana da öz təsirlərini göstərəcək.

Ümumilikdə isə, 30 il BMT-nin çıxardığı 4 qətnaməsini icra etməyən Ermənistan anlamalıdır ki, Azərbaycanın özünümüdafiə instinkti mövcud reallıqlar qarşısında dəyişilməyib, əksinə, daha da güclənib. Əgər Ermənistanda bunu nə qədər tez anlasalar, onda qatarın sonuncu vaqonuna bəlkə də (!) çata bilərlər.

***Rövşən RƏSULOV***

# Tahir Budaqov Türkiyəyə səfər edəcək




Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 11-13 mart tarixlərində Antalya Diplomatiya Forumunda iştirak etmək üçün Türkiyədə səfərdə olacaq. SİA xəbər verir ki, Tahir Budaqov Forum çərçivəsində "Parlament diplomatiyası" mövzusunda keçiriləcək dəyirmi masada da iştirak edəcək. Səfər zamanı YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Binəli Yıldırımla görüşü də nəzərdə tutulub.

# "Bu, Prezidentin beynəlxalq aləmdə xüsusi nüfuz sahibi olması ilə əlaqədardır"

***"Azərbaycan həyata keçirdiyi dərin strateji diplomatiya sayəsində dünya siyasətinin cazibə mərkəzlərindən birinə çevrilməkdədir. Bunun əsas səbəblərindən biri Prezident İlham Əliyevin dünya siyasətində baş verən qlobal dəyişiklәri düzgün qiymətləndirməyi bacarması və bu kontekstdə milli təhlükəsizliyimizi, milli maraqlarımızı yeni çağırışlarla uzlaşdıra bilməsidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.***



Onun sözlərinə görə, bu gün Azərbaycan yerləşdiyi mürəkkəb coğrafiyanı həyata keçirdiyi mühüm enerji və nəqliyyat layihələri ilə mühüm tərəfdaşlıq məkanına çevirməyi bacarıb: "Çindən Londona qədər uzanan Böyük İpək yolunun orta xəttini bir kəmər bir yol layihəsi çərçivəsində reallığa çevirib. Cənubi Qafqazda beynəlxalq hüququn tələblərini yerinə gətirərək ərazi bütövlüyünü təmin edib və uzunmüddətli sülh üçün olduqca əlverişli perspektiv yaradıb. Avrasiya inteqrasiya məkanının mühüm həlqələrindən birinə çevrilib. Bütün bunlar şübhəsiz ki, həm avropalı həm də asiyalı tərəfdaşlarımızın diqqətini cəlb edir.

Hazırda Azərbaycanın ən böyük ticarət tərəfdaşı Avropa İttifaqı ölkələridir. Ancaq buna paralel olaraq ikitərəfli münasibətlərdə də bu ticari tərəfdaşlıq mühüm əhəmiyyət kəsb edir. Bu günlərdə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi xanım Baronessa Emma Nikolsun ondan bir qədər əvvəl İtaliya Nazirlər Şurasının sədri Mario Draqinin Azərbaycana səfər etmələri və Prezident İlham Əliyev tərəfindən qəbul edilmələri hazırki mürəkkəb geosiyasi şərtlər içərisində Azərbaycanın etibarlı tərəfdaş kimi əhəmiyyətini göstərmiş olur. Ancaq yeni dünya düzəninin formalaşdığı hazırki tarixi mərhələdə məsələ sadəcə iqtisadiyyat məsələsi deyil, həm də çoxqütblü dünya nizamında milli dövlətlərin yeri, rolu və gələcəyi məsələsidir. Bax, bu mühüm proseslərdə Azərbaycan Prezidenti İlham Əliyevin tutduğu mövqe və geostrateji proseslərdə oynadığı rol regionumuz üçün açar mahiyyəti daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif qütblərdə dayanan dövlətlərin liderləri ilə ən mürəkkəb məsələləri müzkirə etməklə ən optimal tərəfdaşlıq platformaları təklif edə bilir. Ona görə də bu gün faktiki olaraq müharibə edən ölkələrin də, bu müharibə kontekstində müxtəlif qütblərdə dayanan ölkələrin liderləri də vaxtaşırı Azərbaycan Prezidenti İlham Əliyevlə dialoq çərçivəsində ən müxtəlif məsələləri müzakirə edirlər. Bu, Prezident İlham Əliyevin əsl liderlik keyfiyyətləri və beynəlxalq aləmdə xüsusi nüfuz sahibi olması ilə əlaqədardır".

**Arzu Qurbanzadə**

# Ermənilərin Azərbaycana qarşı "Brtitaniya sanksiyası" xəyalı necə puç oldu?

***Məlum olduğu kimi, martın əvvəlində Böyük Brtiyaniyanın deputatı, erməni lobbisinə işləyən və Avropa məkanında ermənilərin maraqlarını təbliğ edənlərdən biri olan Marqaret Hodce Azərbaycana qarşı sanksiya tətbiq edilməsini tələb etmişdi. Bütövlükdə isə siyasi korrupsiyaya bulaşdığını məhz həmin tələbi ilə özünüifşa edən britaniyalı deputat eyni zamanda, ölkəsinin maraqlarından çox erməni maraqlarına xidmət etdiyini aşıq-aşkar təzahür etdirmişdi.***



*Baronessa Emma Nikolson Böyük Britaniya ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illik yubileyi ərəfəsində Azərbaycana səfər edib*

## Azərbaycan Britaniyanın etibarlı tərəfdaşıdır

Başqa tərəfdən, daha bir fakt bu oldu ki, Marqaret Hodcenin yalan ittihamlarla dolu olan çıxışı əslində Britaniyanın strateji maraqlarına da böyük zərbədir. Daha dəqiq desək, Böyük Britaniya-Azərbaycan arasındakı münbit münasibətlər fonunda belə bir davranış ümumiyyətlə, Londona əl verməyən, sərf etməyən bir haldır. Eyni zamanda, Azərbaycan Britaniyanın etibarlı tərəfdaşıdır. Bakı-London ikili əlaqələri bütün sahələrdə uğurla inkişaf edir. 44 günlük müharibə zamanı da Britaniyanın Azərbaycana verdiyi açıq dəstək hər kəsə məlumdur.

Azərbaycan isə daim beynəlxaq hüququn normalarına qeyd şərtsiz riayət edir və bu xüsusda Böyük Britaniya da Azərbaycanın bu addımlarını dəstəkləməkdədir. Əbəs deyil ki, martın 8-də Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Azərbaycana səfərə gəlib.

## Ermənilərin Avropada etimadsızlıq reallıqları

Eyni zamanda, baronessa Emma Nikolson Böyük Britaniya ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illik yubileyi ərəfəsində Azərbaycana səfər edib və Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da onu qəbul edib. Təkcə bu fakt həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, ermənilərin bütün cəhdləri puç olur, o cümlədən, onlar nə qədər çalışsalar da Britaniya ilə Azərbaycan arasındakı sıx münasibətləri poza bilmir. Fakt budur ki, erməni lobbisinin dayaqları getgedə zəifləməkdədir və onların bundan sonra da gözlənilən cəhdləri, sadəcə, uğursuzluqla nəticələnəcək və eyni zamanda, Avropa ölkələrindəki etimadsızlıq reallıqlarını daha çox qabarıq nümayiş etdirəcək.

**Rövşən RƏSULOV**

# "Forumda ölkəmizin həqiqətlərini dünya birliyinə çatdıracaqlar"

***"Antalya Diplomatik Forumu öz əhəmiyyətinə görə çox yüksək forumdur və forumda müzakirə olunan məsələlər dünyanın gərgin vaxtında bir çox qaranlıqlara işıq sala biləcək, bir çox problemlərin həlli yollarını tapmağa kömək olacaqdır". Bu fikirləri Milli Məclisin deputatı Musa Quliyev bildirib. Onun sözlərinə görə, bu forum Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın administrasiyası və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə keçirilən üçüncü diplomatik forumdur və getdikcə də bu foruma dünya ölkələrinin marağı artır: "Azərbaycan əvvəlki forumlarda da uğurla iştirak edib və bu forumda da yüksək rəsmi heyətlə iştirak edəcək. Forumda müzakirə olunan məsələlərin bir çoxu Azərbaycanın maraq dairəsində olan məsələlərdir.***



Azərbaycan həqiqətlərini, bölgədə gedən prosesləri dünya ictimaiyyətinə çatdırmaq, Azərbaycanın haqq işini dünya birliyinə çatdırmaq üçün çox gərəkli bir platforma olacaqdır.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə bölgədə sülhün təmin olunması üçün aparılan davamlı danışıqlar üçtərəfli bəyannamələrin həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Amma təəssüf olsun ki, erməni tərəfi öhdəsinə düşən vəzifələrin yerinə yetirilməsində müəyyən əngəllər törədir. Kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası məsələsi, Böyük Sülhün əldə olunması üçün irəli addımların atılması məsələsi də bu forumda müzakirə oluna bilər. Eyni zamanda qarşıya qoyulan bir çox məsələlər, xüsusilə də terrorizmlə mübarizə, sülh və rifaha uzanan yol, enerji təhlükəsizliyi məsələləri, müdafiə sənayesinin gələcəyi, Cənubi Qafqaza uzanan körpü və digərləri kimi mövzular birbaşa Azərbaycanın maraq dairəsində olan mövzulardır və Azərbaycan nümayəndə heyəti bu mövzular ətrafında fəal iştirak edəcəklər. Ölkəmizin həqiqətlərini dünya birliyinə çatdıracaqlar. Həmçinin forumun əhəmiyyəti ondan ibarətdir ki, Rusiya ilə Ukrayna arasındakı hərbi münaqişə getdikcə dərinləşir və bu münaqişənin diplomatik və siyasi yolla həlli üçün hər iki dövlətin xarici işlər nazirlərinin görüşü baş tutacaq.

Foruma diqqət olduqca böyükdür. Bu forumdan gözləntilərimiz çoxdur. Qeyd edək ki, foruma ildən-ilə digər ölkələrin yüksək səviyyəli nümayəndələri qatılır. Keçən il baş tutan forumda 11 dövlət və hökumət rəhbəri, 45 nazir iştirak edirdisə builki forumda 15 dövlət və hökumət rəhbəri, 67 nazir iştirak edəcək. Bu da forumun nə qədər əhəmiyyətli olduğunu göstərir. Son illərdə qardaş Türkiyənin və Azərbaycanın dünyada gedən proseslərdə olduqca fəal və ədalətli mövqeyi bizləri sevindirir. Onu göstərir ki, bu ölkələr dünya ölkələri sırasında öz sözlərini demiş və nüfuzlu dövlətlərə çevrilmişdir".

**Abutel İlhamqızı**

# “YAP yeni inkişaf mərhələsinə daxil olub”

***“90-cı illərin əvvəlində ölkəmizdə yaşanmış hərbi məğlubiyyət və daxili böhran suverenliyin gələcəyini sual altına qoymuşdu. Ölkə daxilində gedən siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə yeni təhdidləri yaratmışdı. Ümidsizlik, cəmiyyətdə hökm sürən total apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması - gənc müstəqil Azərbaycanın sosial-siyasi mənzərəsini təşkil edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.***

Onun sölzərinə görə, eyni zamanda müstəqilliyimizin ilk illərində torpaqlarımız əldən gedmiş, ərazi bütövlüyümüz pozulmuşdu: ”Ermənistandan 300 mindən çox azərbaycanlı öz doğma torpaqlarından qovulmuşdu. Vəziyyət olduqca mürəkkəb idi. Belə bir vəziyyətdə yeni siyasi partiyanın yaranması artıq zərurətə çevrilmişdi. 1992-ci il 21 noyabr tarixində Azərbaycanın siyasi səhnəsində Yeni siyasi təşkilat - Yeni Azərbaycan Partiyası yarandı. Həmin ağır və gərgin dövrdə Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın Müdrik Lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında sıx birləşdilər. Bu cəsarətli addımlar nəticəsində həmin dövrdə Azərbaycanda dağıdıcı proseslərin qarşısı alındı. Əgər həmin dövrdə Azərbaycanda bu qərar qəbul edilməsə, Ulu Öndər yenidən hakimiyyətə gəlməsə Azərbaycan qısa vaxtda çox ağır duruma düşə bilərdi, ölkə müstəqilliyini itirə bilərdi. Bir tərəfdən daxili qarşıdurmalar, digər tərəfdən etnik separatçılıq meylləri ölkəni uçuruma aparırdı. Belə bir vəziyyətin qarşısını yalnız Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti ala bilərdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi nəticəsində cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını qısa zamanda inkişaf etdi, Onun özünün dediyi kimi ”dünənin, bu günün və sabahın partiyası” adını qazanaraq qısa müddətdə bölgənin ən güclü partiyalarından birinə çevrildi.

Sonrakı illərdə Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Partiyanın nüfuzu, üzvlərinin sayı daha da artdı. Sonrakı dövrdə YAP-ın VII qurultayda yeni Nizamnamə təsdiq olundu, Yeni Nizamnaməyə əsasən Qurultay, Partiyanın Sədri, İdarə Heyəti və Təftiş Komissiyası partiyanın orqanları qismində müəyyən edildi, Partiya Sədrinin birinci müavini vəzifəsi təsis edildi, həmçinin Partiyanın strukturuna Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatın, yerli təşkilatların və onların aparatlarının daxil olduğu təsbit edildi. VII qurultayda İdarə Heyəti, Təftiş Komissiyası və Veteranlar Şurasının say tərkibi müəyyən edildi, İdarə Heyəti və Təftiş Komissiyasının üzvləri, Veteranlar Şurasının üzvləri, sədri və sədr müavini seçildi. Qurultayda Partiyanın yeni Proqramının hazırlanması və qəbulu barədə qərar qəbul olundu.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ölkədə fəaliyyət göstərən 6 siyasi partiyanın (Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Yurddaş Partiyası, Azərbaycan Kəndli Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası, Azərbaycan Demokratik Sahibkarlar Partiyası, Milli Qurtuluş Partiyası) Yeni Azərbaycan Partiyasına qoşulması barədə müraciətləri öz müsbət həllini tapdı: ”Qurultaydan sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Partiya sədrinin birinci müavini, həmçinin digər müavini və Partiyanın Mərkəzi Aparatına rəhbərlik edəcək müavini təyin edildi. Beləliklə YAP yeni inkişaf mərhələsinə daxil oldu. Bu gün Yeni Azərbaycan Partiyasının üzvləri, Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq onun siyasətini müasir dünyada aparmaq üçün bütün sahələrdə səylə çalışırlar. Bu siyasətə sadiqlik, cəmiyyətimizdə yaşanan həmrəylikdən və Ulu Öndərə olan ümumxalq sevgisindən xəbər verir. Azərbaycan durduqca bu sevgi hər zaman insanların qəlbində yaşayacaq.

Heç şübhəsiz ki, bu gün Yeni Azərbaycan Partiyasının Azərbaycanın siyasi həyatında özünə məxsus yeri var. Partiya Azərbaycandakı digər partiyalarla sıx əməkdaşlıq edir. Partiyanın fəaliyyətində siyasi dialoqun inkişafı prioritet fəaliyyət istiqamətlərindən birini təşkil edir. Siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması, ölkəmizin güclənməsi qarşımızda duran vacib məsələlərdir. Ölkəmizdə aparılan siyasi dialoq demokratik ənənələrin dərinləşməsi və siyasi sistemin təkmilləşməsi üçün böyük əhəmiyyət daşıyır. Hazırda bu istiqamətdə işlər uğurla davam etdirilir”.

***Arzu Qurbanzadə***

# “Müəllimlərə pul vermək onları təhqir etmək deməkdir”

“Ölkədə fəaliyyət göstərən orta məktəblərdə hər əlamətdar günlər vaxtı şagirdlərdən pul yığılması adət halına çevrilib. Təkcə əlamətdar günlər münasibəti ilə bağlı orta məktəbdə pul yığılması bitmir, hətta məktəb direktorunun ad günü, sinif rəhbərinin ad günü, yas mərasimi, xəstəxana xərcləri üçün də bəzi məktəblərdə pul yığılır. Təhsil Nazirliyi isə bu kimi hallara qarşı ancaq tövsiyə xarakterli, ümumi mövqe bildirir. Qeyd edim ki, orta məktəblərdə hər hansı bir məqsəd üçün pul yığılması qanunvericilik aktlarına ziddir və bu, yolverilməzdir. Təəssüf ki, buna baxmayaraq, hələ də bir çox məktəblərdə təhsil alan şagirdlərdən dövlət büdcəsinin vəsaiti hesabına təmin olunmuş məsələlərə görə şagirdlərdən pul yığılır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.



Onun sözlərinə görə, Təhsil Nazirliyinin bu tipli halların qarşısını almaqda ciddi mövqe ortaya qoymaması o anlama gəlir ki, özləri də bu kimi halların baş verməsində maraqlıdırlar: ”Acınacaqlı hal ondan ibarətdir ki, hər il bayramlar münasibəti ilə şagirdlərdən yığılan pulların məbləği artır və bu da bir çox ailələrin büdcəsinə ciddi şəkildə zərbə vurur. Heç də bir sinifdə oxuyan şagirdlərin hamısının maddi imkanı eyni deyil. Xoşagəlməz hal ondan ibarətdir ki, maddi imkanı az olduğuna görə bayramlarda pul verməyən şagirdlərə qarşı sinif rəhbəri, məktəb direktroru, direktor müavini çox pis davranır, ona qarşı sərt mövqe nümayiş etdirilir. Son illərdə texnoloji inkişaf məktəblərdə pul yığımı kampaniyasında struktur dəyişikliyinə gətirib çıxarıb. Belə ki, bu gün məktəblərdə valideyn komitələri adlı ”qurumlar” var. Hansı ki, onlar uşaqların təhsil almasına diqqət etməkdənsə, sinifdəki şagirdlərdən hər hansı bayram şənliyinin təşkili, xüsusi günlərdə müəllimlərə hədiyyələr alınması, bir sıra məqsədlər üçün pul yığımını təşkil edirlər”.

Kamran Əsədov sözlərinə davam edərək həmçinin qeyd edib ki, məktəblərdə qeyri-rəsmi fəaliyyət göstərən müəllim-valideyn assosiasiyaları var ki, həmin ”quruma” rəhbərlik bir və ya iki valideynə tapşırılır: ”Bu ”rəhbər”lər müasir texnologiyadan istifadə etməklə ”whatsapp” qrupları yaradır və həmin qruplarda pul yığımını həyata keçirirlər. Belə olan zaman müəllim özü birbaşa həmin prosesdə iştirak etmir. Nazirlik tərəfindən bu istiqamətdə tədbirlər həyata keçirilir. Amma yaxşı olardı ki, nazirlik tərəfindən anonim sorğular da qeydə alınsın. Əgər, hansısa məktəbdə belə bir fakt varsa, o zaman müəllimənin adını verməklə prosesi aydınlaşdırmaq olar. Çünki əsasən pul yığımları kiçik siniflərdə baş verir. Yuxarı sinif şagirdləri belə faktlar olanda onu sosial şəbəkədə yazır, mətbuata ötürə bilirlər. Lakin kiçik uşaqların belə imkanları olmadığı üçün onlarda pul yığımı hallarına rast gəlmək mümkündür. Hesab edirəm ki, əlamətdar günlər zamanı nazirlik tərəfindən monitorinqlər aparılmalı, təhsil müəssisələrinin qarşısında uşaqlardan bu haqda soruşulmalıdır. Fakt üzə çıxdığı zaman cəza tədbirləri görülməlidir. Sovet dövründə çox nadir hallarda hansısa məktəbdə bu cür hallara rast gəlmək olardı. Yalnız valideynin öz istəyi ilə müəllimə hər hansı hədiyyə verilirdi. Təkcə 8 martda deyil, digər bütün bayramlarda şagirdlər müəllimlərinə müxtəlif forma və rəngdə olan açıqcalar verərdilər. Həmin açıqcada onlar müəllimlərinə arzularını yazırdılar və bu da müəllim üçün böyük hədiyyə sayılırdı. Xarici ölkələrdə isə müəllimlərə pul vermək, onları təhqir etmək deməkdir. Məsələn, Rusiyanın Voronej şəhərində bayram günlərində, xüsusən 8 martda şagirdlər müəllimlərə ya gül dəstəsi, ya da öz əl işlərini hədiyyə edirlər. Bu da müəllimlər üçün çox qiymətli bir hədiyyə sayılır”.

***Arzu Qurbanzadə***

# Qaydaların yumşaldılması nələrə səbəb olacaq?

“Bu mövzu qlobal səviyyədə bütün dünyada aktuallığını saxlamaqda davam edir. İki il ərzində dünyanın müxtəlif ölkələri koronavirusa qarşı mübarizədə fərqli modellər tətbiq ediblər. Onlardan yalnız bəziləri özünü doğrulda bilib. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Asif Bayramov deyib. Onun sözlərinə görə, tibbi ekspertlərin rəylərinə əsaslanaraq deyə bilərik ki, sonuncu ştamm hesab olunan omikron ənənəvi mövsüm qripi kimi özünü göstərir: ”Onun digər ştammlardan fərqi insan orqanizminə çox ciddi fəsadlarının olmamasıdır. Digər tərəfdən keçən iki il müddətdə insanlar virusa yoluxaraq təbii immunitet qazanıb. Bir qismi isə bu immuniteti süni yolla vaksinasiya olunaraq əldə edib”.



Sosioloq sözlərinə belə davam edib: ”Omikronun təsirinin zəif olması və vaksinasiyanın səviyyəsinə əsaslanaraq bəzi Qərb ölkələrindəki kimi Azərbaycanda da artıq sosial həyatı öz axarına qaytarmağın zəruri olduğunu söyləyə bilərik. Çünki koronavirus bizim sosial və ictimai həyatımızda yalnız patoloji faktor rolunu oynamayıb. Onun cəmiyyətə vurduğu psixoloji zərər xəstəlik kimi vurduğu zərərdən qat-qat üstündür. Ekspertlərin və şahidlərin rəylərinə əsaslanaraq görmək olar ki, insanların müəyyən qismi xəstəlikdən deyil, daha çox onun psixoloji təsirindən əziyyət çəkiblər. Əhalidə psixoz vəziyyət yaradan faktorlardan biri də statistikanın təqdim olunmasında yol verilən səhvlərdir. Ona görə də, ilk növbədə, koronavirusun cəmiyyətə vurduğu psixoloji zərərləri aradan qaldırmaq lazımdır.

Omikron ştamminın zəif təsiri qarşısında insanlar kifayət qədər müqavimətə sahibdir. Odur ki, cəmiyyəti həyatın ənənəvi nizamına döndərə biləcək bütün qadağaların aradan qaldırılması ən düzgün yoldur. O cümlədən, dünyanın bir çox ölkələri xəstəliyin başlanğıc fazasında belə kütləvi immun yaratma modelinə üstünlük veriblər. İndiki halda ölkəmizdə də insanlar kütləvi immun sisteminə malik olduğuna görə çəkinmədən cəmiyyətdə psixoz vəziyyət yaradan və ənənəvi həyatı iflic edən qadağaların bir çoxunu aradan qaldırmaq olar”.

***Ləman Əlizadə***

# 10 Mart Milli Teatr Günüdür

***Azərbaycan milli teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin, dünyagörüşü ilə bağlıdır. Azərbaycan xalq teatrı yarandığı zamandan realist özəllik daşımış, keşməkeşli illər yaşayaraq zamanın mühakiməsində təsdiqini tapmışdır. Azərbaycan teatrının ideyaca sağlam bir yöndə inkişaf etməsində, teatrda səhnə realizmi tələblərinin həyata keçirilməsində böyük xidmətləri olmuş sənətkarlar nəslinin formalaşması xalqın ictimai şüurunun yüksəlməsində müstəsna rola malik oldu.***




Hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən, milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilməsi qərara alınıb. Qeyd edək ki, Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti və dünyagörüşü ilə bağlıdır. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynamışdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Gəvsəç" kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir. "Novruz" mərasiminin mühüm epizodunu təşkil edən "Kosa-kosa" oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin, xüsusi paltar geyinən maska taxan aktyor vardır.

Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan "Xan-xan", "Mütriblərin rəqsi", "Gəlinlə qayınananın deyişməsi" və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Azərbaycan professional teatrının təşəkkülündə xalq teatrı əhəmiyyətli rola malik olmuşdur. Azərbaycan teatrının tarixi M.F.Axundzadənin 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan "Sərgüzəşti-vəziri-xani Lənkəran" və "Hacı Qara" tamaşalarından başlanır. H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun yaxından iştirakı ilə realni məktəbin şagirdləri tərəfindən göstərilən bu ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün qüdrətli təkan idi. M.F.Axundzadənin əsərlərindən ibarət tamaşaların səhnələşdirildiyi bəllidir. 1876-cı ildən M.F.Axundzadənin komediyaları Tiflisdə də oynanılmışdır.

XIX əsrin 70-80-cı illərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakıdakı teatr xadimləri ətrafında formalaşmağa başlayırlar. Ona görə də, Bakının teatr həyatı 80-ci illərin axırlarına doğru yenidən canlanır və burada, əsl mənada, müəyyən bir teatr kollektivinin yaranmasına səbəb olur. 1890-cı illərdən başlayaraq, N.Nərimanovun Azərbaycan teatrının ideyaca sağlam bir yöndə inkişaf etməsində, teatrda səhnə realizmi tələblərinin həyata keçirilməsində böyük xidməti olmuşdur.

1916-cı ildə C.Məmmədquluzadənin "Ölülər" komediyasının tamaşaya qoyulması Azərbaycan teatrının ideyaca yetkinləşdiyini göstərən bir olay idi. Bu tamaşa mövhumat və cəhalət, yalan və zülm dünyasına qarşı bir ittihamnamə kimi səslənərək, böyük uğur qazandı.

### AZƏRBAYCAN TEATRININ İNTİBAH DÖVRÜ

1970-ci illərdə Azərbaycanda, bütün sahələrdə olduğu kimi, teatr sahəsində də intibah yarandı. Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən Ulu Öndər Heydər Əliyevin səyi və köməyi nəticəsində, milli teatr sənətimiz vüsətli inkişaf yoluna düşdü.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi böyük təntənə ilə qeyd olundu. Azərbaycanın o vaxtkı MK-nın Birinci Katibi Heydər Əliyevin dərin məzmunlu məruzəsi dinlənildi. Yubiley münasibətilə "Gülüstan" Sarayındakı ziyafətdə də Ümummilli Lider Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq barədə məruzə ilə çıxış etdi. O vaxt neçə-neçə sənətçi təzə mənzillərlə təmin olundu, fəxri adlara layiq görüldü və mükafatlandırıldı. Həmin ildə təkcə Azərbaycan Dövlət Akademik Dram Teatrının üç görkəmli sənətkarı - M.Məmmədov, İ.Dağıstanlı və İ.Osmanlı - keçmiş SSRİ-də ən yüksək ad olan SSRİ xalq artisti adına layiq görüldülər. 1974-cü il 27 iyundan 10 iyula kimi teatr Moskvada qastrolda oldu. Lenin ordeni ilə təltif edildi. S.Vurğunun "İnsan", İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı", N.Poqodinin "Zamanın hökmü", F.Şillerin "Məkr və məhəbbət", V.Şekspirin "Fırtına", C.Məmmədquluzadənin "Ölülər" əsərlərinin tamaşalarını göstərdilər.

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqillik əldə etdikdən sonra, 1993-cü ildən əhalinin sosial rifah halı və vətəndaş fəaliyyəti artdı. Azərbaycanın Akademik Milli Dram Teatrında Azərbaycan və qeyri-milli dramturqların klassik və müasir mövzuda bir sıra maraqlı əsərlərin tamaşası hazırlandı.

### AZƏRBAYCAN TEATRI DÜNYA STANDARTLARINA CAVAB VERİR

Bu gün Ulu Öndər Heydər Əliyev ənənələrini ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin Sərəncamı ilə teatr binaları təmir və bərpa etdirilib, onların dünya teatr səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılır. Teatrlarımız Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, təmir və bərpa etdirilir. Bu proses, ardıcıl olaraq davam etdirilir. Azərbaycan teatrı dünya standartlarına uyğun səviyyədə müasir avadanlıqlarla təchiz olunur. Prezidentin Sərəncamı əsasında, teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir və həyat şəraitləri yüksəldilir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə teatrların fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədi ilə Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verildi.

Bu gün Azərbaycan teatrı Milli Teatr Gününü qeyd edir. Xüsusi olaraq, qeyd edək ki, teatrın yüksəlməsində peşəkar aktyorların da rolu müstəsnadır. Azərbaycan teatrı dedikdə, ilk növbədə, bu ağır yükü çiynində daşıyan aktyorların siması göz önündə canlanır.

Bu qisimdə olan sənətkarlardan biri də Nəsibə Zeynalovadır. Elə aktrisanın anım günü Milli Teatrın yaranma gününə təsadüf edir. Azərbaycan teatr sahəsində çalışan sənətkarlar bayramı qeyd etməklə yanaşı, Azərbaycan teatr səhnəsinin böyük ustad sənətkarı olan Nəsibə xanımın xatirəsini də anırlar.

### REALİST AKTYOR MƏKTƏBİNİN GÖRKƏMLİ AKTRİSASI

Azərbaycan teatrsevərləri arasında "Qaynana" kimi sevilən, Milli Musiqili Komediya Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan Nəsibə xanım Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənmişdir.

Yaradıcılığının mayası gülüş və musiqi ilə yoğrulmuş Nəsibə xanım orta məktəbdən rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdi. Gənc aktrisa yenicə yaranan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasında birinci dərəcəli aktrisa kimi fəaliyyətə başlamışdır. Həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili alıb. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan tələbə Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina, Elvira, Yelizaveta kimi rollarını oynayıb.

Aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Nəsibə xanım milli klassik operettalarımızın tamaşalarında Gülpəri, Cahan xala, Sənəm, Mələk xanım və Kələk xanım kimi xarakterik səhnə obrazlarında çıxış edib. Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi Kabato və Barbale, Ziraldina, Zivər xanım, Alma, Qesiya rollarının xüsusi yeri var. Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır. Aktrisa Xanpəri, Nargilə, Şərəf, Məsmə, Züleyxa, Tükəz, Şölə xanım, Xeyransa, Güləndam, Qəmər və başqa rollarının əvəzsiz ifaçısı sayılır. Xüsusilə, Cənnət xala, Nargilə, Züleyxa obrazları zəngin ifadə vasitələri, yumorun milliliyi, təbii reallığı ilə səhnəmizin nadir inciləri sırasında durur. Azərbaycan Televiziyasında onlarla yumoristik səhnəciklərdə, teletamaşalarda çıxış etmiş Nəsibə Zeynalova, həmçinin, "Azərbaycanfilm"in çoxlu ekran əsərlərinə çəkilib. Kino obrazları içərisində Fatmanisə, Telli, Züleyxa, Cənnət xala, Gülsüm, Əsli xala rolları daha canlı və daha şöhrətlidir. Musiqili teatrımızın inkişafında böyük xidmətlərinə görə, Nəsibə xanım xalq artisti fəxri adına layiq görülüb. "Hicran" musiqili komediyasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət Mükafatı Laureatıdır. 1974-cü ildə Rauf Kazımovski onun yaradıcılığı barədə "Aktrisanın təbəssümü" televiziya filmini çəkib.

Rəqs, mahnı və hərəkətlərdən eyni epizodda, hətta eyni məqamda yüksək peşəkarlıqla istifadə edib. Nəsibə xanım Azərbaycan teatr səhnəsində möhürünü vurdu. Nəsillərə örnək ola biləcək sənət məktəbini yaratdı.

Azərbaycan teatrının uğurları hələ qarşıdadır. İnanırıq ki, bu gün yaranmasının 149-cu ildönümünü qeyd edən Azərbaycan teatrı qarşıdakı illərdə bir-birindən maraqlı səhnə əsərləri ilə daha böyük uğurlara imza atacaq.

***Zümrüd BAYRAMOVA***

# Qo Min: “Çin və Azərbaycan arasında əməkdaşlıq sürətlə inkişaf edir”



**Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qo Min ”SƏS” İnformasiya Agentliyinə eksklüziv müsahibə verib.**

***- Azərbaycanla Çin arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd ediləcək. Siz Azərbaycan-Çin münasibətlərinin hazırkı vəziyyətinə dair nə deyə bilərsiniz? Çinin xarici siyasətində Azərbaycanla bağlı mövqeyi necədir?***

- Son illər Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi qayğısı və köməyi sayəsində ikitərəfli dostluq və əməkdaşlıq münasibətləri müsbət tendensiyanı qoruyub saxlayıb. Ölkələr davamlı olaraq siyasi qarşılıqlı etimadı dərinləşdirir, ”Bir kəmər, bir yol”un birgə qurulmasında möhkəm əməkdaşlıq edir və beynəlxalq əməkdaşlığı getdikcə gücləndirirlər. Hər iki tərəf əsas maraqlara və işlərə aid məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyir və iki ölkənin əsas maraqlarını qətiyyətlə müdafiə edir. Yeni növ koronavirus infeksiyasına qarşı birgə mübarizə prosesində Çin və Azərbaycan müvəqqəti çətinlikləri birgə aradan qaldırır, bir-birinə dərin mənəvi dəstək və vaxtında maddi yardım göstərir, təcrübə mübadiləsi aparır. Dost çətin vəziyyətdə tanınır və ölkələrimiz arasında epidemiyaya qarşı beynəlxalq əməkdaşlığın birgə təşviqi bu sözlərin dərinliyini və həqiqətini tam əks etdirir.

***- Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumu imzalanıb. "Bir kəmər, bir yol" layihəsi çərçivəsində iki ölkə tərəfindən əldə edilən irəliləyişi necə qiymətləndirirsiniz? "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq üçün hansı sahələr prioritet təşkil edəcək?***

- Azərbaycan Çinin ”Bir kəmər, bir yol” təşəbbüsünə cavab verən və onu tam dəstəkləyən ilk ölkələrdəndir. Azərbaycanın ”Böyük İpək Yolunun Dirçəlişi” milli inkişaf strategiyası Çinin ”Bir kəmər, bir yol”un birgə tikintisi konsepsiyası ilə yüksək səviyyədə uzlaşır. Son illər iki dövlət başçılarının şəxsi qayğısı və köməyi ilə Çin və Azərbaycan arasında ”Bir kəmər, bir yol”un birgə tikintisi davamlı inkişaf əldə edib. Ötən ilin iyununda Çin Xalq Respublikasının sədri Si Cinpin Prezident İlham Əliyevlə telefon danışığında vurğulamışdı ki, Çin ”Bir kəmər, bir yol”un birgə tikintisində Azərbaycanı mühüm tərəfdaş hesab edir və onunla imkanları bölüşməyə, ümumi inkişaf üçün səy göstərməyə, təşəbbüs çərçivəsində əməkdaşlığı birgə planlaşdırmağa və təşviq etməyə hazırdır.

Tərəflər İqtisadi və Ticarət Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradıb. Keçirilən səkkiz görüş zamanı ticarət-iqtisadi sərmayələr, nəqliyyat və logistika, rabitə və yüksək texnologiyaları sahələrində ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair çoxsaylı razılaşmalar əldə edilib. Ölkələrimiz arasında ticarət dövriyyəsi durmadan artır, onun həcmi rekord həddi 2 milyard dolları ötüb. Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşı və idxal olunan məhsulların üçüncü ən böyük mənbəyi olaraq qalır. Çindən birbaşa Azərbaycana və Azərbaycandan keçməklə Avropaya 10 Çin-Avropa yük qatarı hərəkət edir və beləliklə, iki ölkə arasında məhsul növləri üzrə əmtəə ticarəti daha da müxtəlifləşib.

Çin Xalq Respublikası və Azərbaycan Respublikası arasında neft və qazın kəşfiyyatı və hasilatı, sənaye parklarının tikintisi, rəqəmsal ekologiya, aerokosmik və digər sahələrdə iri layihələrdə əməkdaşlıq sürətlə inkişaf edir. Çinin Azərbaycana iqtisadi və texniki yardım layihələri uğurla həyata keçirilir. Bunlar mobil elektrik stansiyaları üçün avadanlıqların ötürülməsi, suyun idarə olunması üçün suvarma avadanlıqları və elektron məlumat bazalarının yaradılması kimi layihələrdir.

Azərbaycan Çinin müxtəlif böyük və əhəmiyyətli Çin İdxal və İxrac Mallarının Kanton Sərgisi, Çin Beynəlxalq Xidmət Ticarət Sərgisi və Çin-Avrasiya EXPO kimi tədbirlərində fəal iştirak edir. Ölkələr arasında ticarət və iqtisadi mübadilələr getdikcə artır. Çin Azərbaycandan yüksək keyfiyyətli məhsullar idxal etməyə, nəqliyyat və logistika sahəsində beynəlxalq əməkdaşlığı dərinləşdirmək üçün infrastruktur tikintisi və digər sahələrdə əməkdaşlığı inkişaf etdirmək üçün Çin müəssisələrini Azərbaycana sərmayə qoymağa təşviq etməyə, nəqliyyat və logistika sahəsində beynəlxalq əməkdaşlığı dərinləşdirmək, Avrasiya Nəqliyyat Dəhlizinin tikintisini təşviq etmək, regional əməkdaşlığın səviyyəsini yüksəltmək, iki ölkənin sosial-iqtisadi inkişafını və rifahını təmin etməyə hazırdır. Bu da öz xalqlarımız üçün faktiki faydalar yaradır.

***- Bu il Çin Xalq Respublikasının yaradılmasının 73-cü ildönümü qeyd olunur. Son illər ərzində Çinin iqtisadiyyatında baş vermiş inkişafın fəlsəfəsində nə dayanır?***

- Xalqı birləşdirən və ona rəhbərlik edən Çin Xalq Respublikasının yaranmasından ötən 73 il ərzində Çin Kommunist Partiyası uzun və gərgin mübarizə apararaq, dövlət quruculuğunda, inkişafında və xalqın həyatının yaxşılaşdırılmasında parlaq uğurlar qazanıb. Çin müəyyən edilmiş vaxt çərçivəsində firavan cəmiyyəti hərtərəfli qurmaq məqsədinə vaxtında nail olub, mütləq yoxsulluq üzərində qələbə qazanıb və indi modernləşmiş sosialist dövlətinin hərtərəfli qurulmasının yeni yoluna qədəm qoyub. Sərt beynəlxalq şərait və pandemiya fonunda çətin daxili mühitlə üzləşən Çin hökuməti iqtisadi vəziyyət üçün elmi həllər təqdim etdi. Çin Xalq Respublikasının Sədri Si Cinpin innovasiya, koordinasiya, ətraf mühitə uyğunluq, açıqlıq və inkişafın bəhrələrinə universal çıxışla səciyyələnən yeni inkişaf konsepsiyalarını irəli sürüb.

O, həmçinin daxili iqtisadiyyatın sütun olduğu, daxili iqtisadiyyatla beynəlxalq iqtisadiyyatın birbirini tamamladığı yeni ”ikili dövriyyəli” inkişaf modelinin yaradılmasının sürətləndirilməsinin vacibliyini vurğulayıb. Bu da öz növbəsində həqiqətən yüksək keyfiyyətli iqtisadi inkişafı təşviq edəcək, ölkənin sosial-iqtisadi inkişafında tarixi dəyişiklik yaradacaq, onu yeni tarixi zirvələrə çatdırmaq, risk və çağırışlara qarşı güclü müqavimətini təmin edəcək. Hazırda Çinin iqtisadi inkişaf dinamikası ümumilikdə müsbətdir.

2021-ci ildə Çinin ÜDM-i 8,1% artaraq dünya iqtisadiyyatının 18%-ni təşkil edib. Daxili və xarici iqtisadi mühitdəki dəyişikliklərin yaratdığı böyük təzyiqə baxmayaraq, Çin iqtisadiyyatının əsasları dəyişməz qaldı. Onlar sabitlik, güclü potensial, uzunmüddətli inkişaf ilə xarakterizə olunur. Biz Çinin iqtisadi gələcəyinə əminik.

***- Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təsir göstərən ən mühüm faktorlardan biri də iki ölkə rəsmilərinin qarşılıqlı səfərləridir. Azərbaycanın müstəqilliyinin ilk illərində Ümummilli Lider Heydər Əliyev, 2005 və 2015-ci illərdə isə Prezident İlham Əliyevin Çinə rəsmi səfərləri baş tutub. Bu səfərlərin iki ölkə arasında siyasi və iqtisadi münasibətlərin inkişafında hansı rolu oynayıb, hansı dəyişikliklər baş verib?***

- Çin və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından keçən 30 il ərzində iki dövlət başçısının yüksək səviyyəli planlaşdırması və strateji rəhbərliyi sayəsində Çin-Azərbaycan dostluq və əməkdaşlıq münasibətləri əlverişli inkişaf tempini qoruyub saxlamışdır. Ölkələr müxtəlif sahələrdə qarşılıqlı əlaqələri davamlı olaraq dərinləşdirir ki, bu da ölkələrin öz xalqlarına həqiqətən xeyir verir. Ötən 30 ildə ikitərəfli münasibətlərin inkişafına nəzər saldıqda deyə bilərik ki, tərəflər ardıcıl olaraq yüksək səviyyəli mübadilələri qoruyub saxlamış, siyasi qarşılıqlı etimadı yorulmadan möhkəmləndirmişlər. Azərbaycanın dövlət rəhbərləri üç dəfə - 1994, 2005 və 2015-ci illərdə Çinə səfər ediblər.

2019-cu ildə Azərbaycana Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədri Li Cançu rəsmi, Çinin Xarici İşlər naziri Vanq Yi və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun rəhbərlik etdiyi nümayəndə heyəti isə işguzar səfər ediblər. COVID-19-un başlanmasından bəri Çin və Azərbaycan arasında yüksək səviyyəli səfər mübadiləsinin müvəqqəti dayandırılmasına baxmayaraq, dövlət başçıları və müxtəlif səviyyəli liderlər ikitərəfli əməkdaşlığın xüsusi tədbirlərinin və mühüm gündəmlərinin qeyd olunması münasibətilə məktublar mübadiləsi aparıblar.

2021-ci ilin iyununda Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı olub, onlar ikitərəfli münasibətlər və müxtəlif sahələrdə əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıb, mühüm razılaşmalar əldə ediblər, Çin-Azərbaycan münasibətlərinin gələcək inkişafı istiqamətlərini birgə qeyd edərək, ölkələr arasında dostluq və əməkdaşlığın yeni səviyyəyə yüksəlməsinə töhfə veriblər.

Bu yaxınlarda Azərbaycan Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini Əli Əhmədov Çində səfərdə olub və Pekin-2022 Qış Olimpiya Oyunlarının rəsmi açılış mərasimində iştirak edib. Onun səfərinin məqsədi iki ölkə arasında idman sahəsində əməkdaşlıq və partiyalararası mübadilələri daha da aktivləşdirməkdir. Çin iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü Azərbaycanla yüksək səviyyəli mübadilələri daha da gücləndirmək, siyasi qarşılıqlı etimadı dərinləşdirmək, müxtəlif sahələrdə praktiki əməkdaşlığı gücləndirmək və Çin-Azərbaycan münasibətlərində yeni eranın başlaması üçün birgə səylər göstərmək fürsəti kimi qəbul etməyə hazırdır.

***- İki ölkə arasında mədəni əlaqələrin perspektivlərini necə qiymətləndirirsiniz? Turizm əlaqələrini inkişaf etməsi üçün nə etmək lazımdır?***

- Son illər Çin və Azərbaycan arasında mədəniyyət sahəsində mübadilə və əməkdaşlığın daim dərinləşməsi səmərəli nəticələr verib. İki ölkənin səlahiyyətli mədəniyyət orqanları, ədəbi-bədii qurumları ənənəvi mədəniyyətin təbliği, mədəniyyət və təhsil mübadilələri sahəsində sıx əlaqələr saxlayır, qarşılıqlı səfərlər, mədəni tədbirlər və elmi seminarlar kimi müxtəlif formalarda mədəni irsin qorunmasında geniş əməkdaşlıq edirlər. Xariclə Dostluq üzrə Çin Xalq Cəmiyyəti, Sun Çinlin Fondu, Çin Xalq Diplomatiyası Elmi Cəmiyyəti, Çin Xalq Diplomatiyası Assosiasiyası, Çin Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq və Dostluq Əməkdaşlıq Komitəsi və digər Çin təşkilatları Heydər Əliyev Fondu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə yaxşı əməkdaşlıq əlaqələri qurub, müntəzəm qarşılıqlı fəaliyyət mexanizmləri formalaşdırıblar. Onlar ikitərəfli işgüzar səfərləri, elmi konfransları, gənclər mübadiləsi və dialoq qruplarının görüşlərini, müxtəlif mədəni fəaliyyətləri birgə təşviq edir, iki ölkə arasında mədəni qarşılıqlı əlaqəni səmərəli şəkildə təşviq edirlər. Çin ölkələr arasında mədəni əməkdaşlığın hazırkı vəziyyətini yüksək qiymətləndirir və onun gələcək inkişaf perspektivlərinə əmindir.

Çin və Azərbaycan zəngin tarixə və geniş turizm resurslarına malikdirlər. Azərbaycan hər il çoxlu sayda xarici turistləri cəlb edən bir çox görməli yerləri və təbiət qoruqları ilə məşhurdur. Azərbaycan xaricə səyahət edən çinli turistlər arasında getdikcə populyarlaşır. 2019-cu ildə Azərbaycana 20 mindən çox çinli turist gəlib ki, bu da rekord göstəricidir. Epidemiya qlobal turizm sənayesinə böyük ziyan vurub, eyni zamanda turizmin transformasiyası üçün yeni imkanlar yaradıb. Çin iki ölkə arasında turizmin keyfiyyətcə inkişafını birgə təmin etmək məqsədilə bu sahədə əməkdaşlığın dərinləşdirilməsi, epidemiyaya qarşı əməkdaşlığın gücləndirilməsi, virtual turlar və bulud texnologiyaları üzrə sərgilər kimi turizmin innovativ formalarının təşviqi üçün Azərbaycanla birgə səylər göstərməyə hazırdır.

**Hörmətli xanım səfir, müsahibə üçün təşəkkür edirik.**

# Paytaxt Bakı qədimliklə müasirliyin vəhdətində

## *Prezident İlham Əliyev: "Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır"*



***Bənzərsizliyi ilə dünyanın ən gözəl şəhərlərindən seçilən və nadir şəhərlər sırasında yer alan Azərbaycanın paytaxt şəhəri Bakı müasirliyi ilə köhnəliyin, qədimliyin vəhdətində diqqəti cəlb edir. Hər zaman tarixi və bir-birindən maraqlı, diqqətçəkən tikililəri ilə göz oxşayan Bakının adı bu gün yeni-yeni möhtəşəm və bənzərsiz abidələri ilə dünyanın ən gözəl və müasir şəhərləri sırasında yer alıb. Tarix boyu bu şəhər öz əzəməti, füsünkarlığı ilə diqqəti cəlb edib.***



Böyük elmi-mədəni və sənaye mərkəzi olan Bakı qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunur. Sinəsində məskən salan abidələri bu şəhərin sirli memarlıq nümunələrinin abidəsidir. Möhtəşəm Şirvanşahlar Sarayı kimi abidələr şəhərin memarlıq abidəsinə gözəl rəng əlavə edib. Qədim qala divarları, uca qüllələr Bakının əzəmitini özündə ehtiva edir. Bakının ən möhtəşəm və sirli abidələrindən biri Milli Dənizkənarı Parkın qənşərində yerləşən məşhur Qız qalasıdır.

Bu gün ölkəmizin iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunduğundan ölkəmizin hər bir yerində abadlıq, quruculuq işləri geniş vüsət alıb. Dinamik inkişaf, infrastrukturun yeniləşdirilməsi, geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri regionlarla yanaşı, paytaxt Bakıda da uğurla davam etdirilib. Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Paytaxtımızın görkəmi dəyişir, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidən qurulması, yeni yaşayış binalarının inşa edilməsi, əlavə iş yerlərinin açılması istiqamətində ardıcıl işlər görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxışı zamanı bildirdiyi kimi, "Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır".

### "BAKIDA QƏDİMLİKLƏ MÜASİRLİK ARASINDA VƏHDƏT VAR"

Qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunan Bakının rəmzinə çevrilən və ona yeni sima və rəng verən müasir tikililər də, məhz iqtisadi göstəricilərin məntiqidir. Bakının ümumi görünüşünü daha da müasirləşdirən şəhərdəki ən hündür bina olan "Alov qüllələri" kompleksi, Azərbaycan muğamının dünyanın geniş təbliği məqsədi ilə yaradılan, Avropa standartları ilə inşa edilən Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və s. istiqamətində sistemli fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, eləcə də Xalça muzeyi, Bakı Su İdmanı Mərkəzi və eləcə də digər tikililər Bakının simasına müasirlik gətirib.

Əlbəttə ki, bugünkü müasir Bakının ruhu cəlbedicidir və burada olan müasir üslublu muzeylər, teatrlar, konsert zalları, Dənizkənarı Milli Park, eyni zamanda milli və xarici mətbəxi ilə seçilən kafelər, restoranlar şəhərə rəng əlavə edib. Son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması paytaxtımızın simasına daha bir çalar bəxş edib. Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton",



"Hyatt" - dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. "Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır" - deyən Prezident həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaratdığını bildirib: "Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var".

### "10-15 İL BUNDAN ƏVVƏL BULVARIN VƏZİYYƏTİ NECƏ İDİ - QARANLIQ, SƏLİQƏSİZLİK VƏ HEÇ BİR ŞƏHƏRƏ ŞƏRƏF GƏTİRMƏYƏN MƏNZƏRƏ"

Bakıdakı Dənizkənarı Milli Park Bakı şəhərinin ən maraqlı və spesifik təbii şəraitə malik yerlərindəndir. Bu gün Milli Parkımız ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Burada "Baku Kristal Hall"ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Bu bənzərsiz, möhtəşəm görkəm Bakının dünyanın ən görməli 52 şəhərindən biri kimi seçilməsinə səbəb olub. Dövlət başçısı çıxışda "10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi - qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə" - deyə bildirib: "Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni, Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar, - üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan - ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür".

### "BAKININ MEMARLIQ ANSAMBLI XEYLİ SAĞLAMLAŞDI"

Bakı Bulvarında bərpa edilən "Qu quşları" fəvvarə kompleksi də paytaxtımızın əzəmətinə, görkəminə xüsusi bir rəng verir. Bakı Bulvarının tarixi rəmzlərindən biri olan "Qu quşları" fəvvarə kompleksi 60 ildən artıq tarixə malikdir. Paytaxtımızda qurulan "Qu quşları" fəvvarəsi də sakinlərin sevimli məkanlarından biri kimi hər zaman sevilib. Dünyaşöhrətli, Azərbaycanın dahi şairi Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə paytaxtın gözəl məkanlarından biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi. Layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub və 7 qu quşu heykəli hazırlanıb. Bu məkan müasirləşən paytaxt Bakının görkəminə daha bir gözəllik və möhtəşəmlik gətirdi. İndi şəhərimizin sakinləri və buraya üz tutan minlərlə əcnəbi bu gözəlliyi seyr edərək qədim və müasir Bakının gözəlliklərinə və hüsnünə heyran qalırlar.

Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizi gözəlliyinə yeni gözəlliklər qatılır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması davam edir. Yeni salınan parklar Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır. "Son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı" - deyən Prezident bir daha vurğulayıb ki, Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir: "Bunu



hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik - Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycanın uğur reallığı: islahatlar, perspektivlər və yeni məqsədlər

***Azərbayanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatlar reallığı özünü bütün məqamlarda və proseslərdə ehtiva etməkdədir. Bu xüsusda, daxaili siyasətdə də aparılan islahatlar öz uğurlu nəticələri ilə sübut olunmaqdadır. Belə ki, islahatların daha bir amili Milli Məclisə keçirilən növbədənkənar seçkilərlə, eləcə də parlamentimizin fəaliyyətindəki yeniliklərlə göstərilə bilər. Prezident İlham Əliyevin 10 mart 2020-ci ildə altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışında da reallaşdırılan islahatlarla bağlı bir sıra əhəmiyyətli faktorlar önə çəkilmişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki, davamlı islahatlar siyasətinin parlamentdə də sövq edilməsi Milli Məclisin işinin yaxın perpektivdəki işinin daha geniş sferanı əhatə etməsinə söykənir. İlk növədə isə, ölkəmizdə mövcud olan demokratik mühit islahatlara stimul verməkdədir.***



**Məşhur MƏMMƏDOV,**
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü*

Əbəs deyil ki, seçkilərin nəticələrinə dair verilmiş obyektiv beynəlxalq qiymət bir sıra aparıcı qurumlar, təşkilatlar tərəfindən verilmişdir. Misal üçün, Avropa İttifaqı seçkilərin keçirilməsi ilə əlaqədar çox obyektiv qiymətləndirmə aparıb və bəyan edilib ki, Aİ yeni seçilmiş deputatlarla, Azərbaycan parlamenti ilə işləməyə hazırdır. Söz yox ki, verilmiş bu qiymət, bilavasitə demokratik seçkilərin tanınması gerçəkliyini isbatlayır.

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan parlamentinin fəaliyyətində əldə edilən uğurlar özünü bir neçə tərəfdən göstərməkdədir. Bu, ilk növbədə, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olması ilə əlaqələndirilə bilər. Həmin əlaqələndirilmələrin bir hissəsi isə bunlardır:

**1.**Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb.

**2.** Altıncı çağırış Milli Məclis çoxpartiyalı sistem çərçivəsində fəaliyyət göstərir.

**3.** Bütün siyasi qüvvələr seçkilərdə iştirak edərək, ölkənin daxili siyasi gündəmində fəallıq nümayiş etdiriblər.

**4.** Müxalifət partiyalarının nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunurlar və ölkənin gündəmində dayanan məsələlərlə bağlı aktiv fəaliyyət göstərirlər.

Beləliklə, fakt budur ki, sadalanan təkcə bu amillər Azərbaycandakı siyasi sistemin möhkəmlənməsinin, siyasi münasibətlərin sağlam zəmində gücləndirilməsinin münbit təzahürləridir.

Təbii ki, ölkəmizdəki siyasi prüalizm və demokratik reallıq gerçəkliyi həm də belə qənaətə gəlməyə kiayət qədər zəmin yaradır fəaliyyət göstərən bütün siyasi təşklatlar yalnız dialoq mühitinin inkişafından yararlanırlar. Daha dəqiq desək, siyasi islahatların partiyalararası geniş dialoqlar olmadan həyata keçirilməsində baryerlər yarana bilər. Məhz bu kimi baryerləri aşmaq üçün Prezident Administrasiyasının nümayəndələri bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir, eləcə də Milli Məclisdəki müxalifət partiyaları ilə sıx təmaslar saxlanılır, qarşılıqlı diskusiyalar, müzakirələr aparılır. Əbəs deyil ki, daha genişmiqyaslı islahatlar dövründə siyasi islahatların aparılması həm də müasir siyasi sistemin çağırışına çevrilmişdir.

Bu baxımdan, biz daha bir amilə də diqqət yeriməliyk. Misal üçün, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılmalıdır və artıq həmin prosesə başlanılıb.

Gözlənilən uğurlu nəticələr isə bunlardır:

a) Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq.

b) Çoxpartiyalı sistemin inkişafı naminə siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektorları işlək vəziyyətə gətirilib.

c) Ölkədə reallaşdırılan uğurlu islahatlar həm konseptual xarakter həm də struktur xarakteri daşıyır və aparılan kadr islahatları buna sübutdur.

Lakin biz daha bir əhəmiyyətli və xalqımızı narahat edən bəzi nüasnları da diqqətə çatdırmalıyıq. Sirr deyil ki, bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirir. Dövlətin, ölkə rəhbərliyinin bu kimi dairələrə göstərdiyi etimadlarının doğrulmaması isə qəti və sərt tədbirlərin görülməsi tələbini zəruri edir. Çünki Prezident İlham Əliyev cənablarının da vurğuladığı kimi, hər bir məmur xalqın xidmətçisi olmalıdır və Onun özü xalqın bir nömrəli xidmətçisi olduğunu dəfələrlə öz çıxışlarında vurğulayıb. Bu kələmdan nəticə çıxarmayan, yaxud nəticə çıxarmaq istəməyən naxələf məmurlar sonunda məhz xalqın, dövlət qanunlarının qarşısında cavab verməlidirlər və verirlər də.

Biz ümid edirik ki, dövətimizin inkişafına, xalqımızın rifah halının yaxşılaşdırılmasına maneçilik törədən naxələf məmurlar üzərində bundan sonra da təmizləmə işləri aparılacaqdır - həm mərkəzi, həm yerli icra orqanlarında, eləcə də bütün dövlət qurumlarında.

Yuxarıda qeyd edilən fikirlərin hər biri həm də onu sübut edir ki, bəli, islahatların dərinləşməsi prosesi parlamentdən yan keçə bilməzdi. Ona görə də, əminliklə deyə bilərik ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir.

Biz deputatların da əlbəttə ki, qarşısında böyük vəzifələr durur və ilk növbədə, qanunvericilik sahəsində. Çünki bildiyimiz kimi, parlamentin əsas işi qanunvericilikdir və Milli Məclis bilavasitə ölkəmizin ali qanunverici orqanıdır. Dəyişən reallıqlar isə yeni mütərəqqi məzmunlu qanunların hazırlanmasını zəruri edir.

O cümlədən, mən də seçicilərimin göstərdiyi yüksək etimaddan istifadə edərək təklif edirəm ki, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün yeni qanunvericilik təşəbbüslərini həyata keçirmək lazımdır. Siyasi islahatlarla paralel şəkildə iqtisadi islahatlarımızın da dərinləşməsi işinə töhfələr verən qanunlar qəbul edilməlidir. Lakin eyni zamanda, hər bir islahat milli ruhu özündə cəmləşdirməlidir. Daha dəqiq desək, milli dəyərlərimizlə və onların qorunması ilə bağlı qanunvericilik bazasının daha da geniş olması üçün tələb edilən bütün zəruri qərarlar verilməli, addımlar atılmalıdır.

Azərbaycan sosial dövlətdir və son illərdə atılan btün mütərəqqi addımlar bunu kifayət qədər isbatlayır. Hesab edirəm k, minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması böyük iqtisadi mənbə tələb edir. Habelə, ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə vurur.

Daha bir mühüm reallıq ölkəmizdə aparılan gənclər siyasəti ilə bağlıdır. Nəzərə alsaq ki, Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir, bu zaman əminliklə deyə bilərik ki, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Təbii ki, gənclər bizim gələcəyimizdir və gəncliyin inkişafı gələcəyimizin inkşafı deməkdir. Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, vətənpərvərlik ruhunda tərbiyə edilmələri istiqamətində qanunvericilikdə ardıcıl addımların atılması mütləqdir. Ən əsası isə, qarşıya qoyulan məqsədlərimizdən biri də gənclərimizin milli ruhda tərbiyə almalarına xüsusi diqqətin ayrılması, onların xarici təsir altına düşməmələri üzərində çevik tədbirlərin görülməsi olmalıdır.

O da sirr deyil ki, ölkəmizin xaricində Azərbaycanın regional və dünya əhəmiyyətli güc mərkəzinə çevrilməsini istəməyən bir sıra anti-Azərbaycan qüvvələri mövcuddur və bu gün də həmin qüvvələr yenilərini yaratmaq istəyirlər. Artıq sübut edilib ki, yeni beşinci kolonun yaradılması istiqamətində iş aparılır. Çünki indiki beşinci kolon öz sahiblərinin etimadını doğrultmur. Bu baxımdan da, yeni beşinci kolon axtarışı gedir. Əlbəttə ki, bu bir yol xəyanət yoludur və yalnız iqtidara qarşı deyil, həm də dövlətçilik maraqlarına qarşı edilən bağışlanılmaz cinayətdir!

Yuxarıda qeyd edilən fikirlərdən həm də belə nəticə hasil etmək olar ki, deputatlar seçicilərinin etimadlarını doğrultmaq üçün fəal olmalı və seçicilərlə daim təmasda olmalıdırlar. Artıq yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bu gün aparılan islahatların da mahiyyəti, məğzi də bunlardan ibarətdir.

Həmçinin, beynəlxalq fəaliyyətin də səmərəliliyi artırılmalıdır. O təşkilatlarda ki, bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır. Dəfələrlə isbata yetirilib ki, demokratiyadan dərs vermək istəyənlər özləri demokratiyaya qarşı cinayətlər törədirlər. Özlərinə demokrat deyən qüvvələr bütün dünyanın gözləri önündə sosial və s. təəblərlə küçələrə çıxan dinc nümayişçilərə qarşı zor gücü tətbiq edir, sözün əsl mənasında vəhşilik nümayiş etdirirlər. Bu xüsusda biz jurnalistlərin də əsassız ittihamlarla həbs edilmələrinin şahidlərinə çevrilirik.

Ətrafımızda baş verənlərdən nəticə çıxarmaq bizim ilk işimiz olmalıdır. Bu, həm də bizim deputat olaraq məsuliyyətli fəaliyyətimizə təkan verir. Bu gün deputatlarla yanaşı, hökumət üzvləri də xalqla daha sıx təmasda olmalıdırlar. Belə bir qarşılıqlı addımların atılması məsuliyyətləri artıracaq, həm də parlamentimizin vətəndaşlarımızın, seçicilərimizin, bütövlükdə isə cəmiyyətimizin qarşısındakı rolu artacaq.

Bizlərin bir amalı, bir qayəsi var: Azərbaycan həm regionda, həm də müasir dünyamızda dünyəvi dövlət kimi güclənməkdə davam etməli, dünyəvilik prinsipləri daha geniş bərqərar olmalı, radiaklizm təhükələrini birdəfəlik aradan qaldırmalıdır. Əslində, ilkin uğurlar da bəhrəsini verib. Belə ki, Azərbaycan xalqı əminamanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayır. Çünki əldə etdiyimiz ən böyük uğurlardan biri siyasi sabitlikdir. Siyasi sabitliyin qorunmasında bütün vətəndaşlar fəal iştirak etməlidir və bu gün həm təhlükəsizlik, həm də sabitlik təmin edilir. Və ən əsası, uğurlu xarici siyasətimizin təməlində dayanan daha bir faktor türkdilli dövlətlərlə əməkdaşlıqdır. Bu əməkdaşlıqda Azərbaycan çox önəmli rol oynayır.

Daha bir reallıq Avropa İttifaqına üzv olan doqquz ölkə ilə strateji tərəfdaşlıq sənədlərimizin mövcud olmasıdır. Yəni Azərbaycan Avropa İttifaqına üzv ölkələrin üçdə-bir hissəsi ilə sıx təmaslar qurub. O cümlədən, qonşu ölkələrlə sağlam, işgüzar və dostluq əsasında qurulmuş münasibətlər var, eləcə də müsəlman aləmində böyük nüfuzumuz mövcuddur. Bütün bu kimi amillər isə qarşıdakı perpektivlərimizə işıqlı yol açır. Azərbaycan situativ məntiqdə deyil, reallıq məntiqində öz uğur sözünü deyir və Milli Məclisin də islahatlar siyasətinin tərkib hissəsində önəmlin yer alması bizlərdə qürur hissini daha da artırır.

ANALİTİKA-ŞƏRH

# Spirtli içkilər və siqaret gəncləri uçuruma aparır

***Müxtəlif dövrlərdə olduğu kimi, günümüzdə də spirtli içki istifadə edən və ya buna aludə olan insanların sayı kifayət qədərdir. Lakin keçmişlə indiki zamanın fərqi odur ki, keçmişdə orta yaşlı kişilər bundan istifadə etdiyi halda indi həm qadınlar, həm məktəbli qızlar və həm də yeniyetmə oğlanlar alüdəçilik edir. Bütün bunlar isə cəmiyyəti uçuruma aparır.***









ARAŞDIRMA

Günümüzdə kifayət qədər dərsdən qaçıb və yaxud da dərs çıxışı spirtli içki içən şagirdlər var. Bəs, bu halların qarşısı necə alınmalıdır? Hansı tədbirlər görülməlidir?

Alimlər alkoqolun istifadəçiyə vurduğu zərəri nəzərə alaraq onun narkotikdən daha təhlükəli olduğunu deyirlər.

Alkoqolun zərərlərini nəzərə alsaq, ağla gələn ilk sağlamlıq problemləri bunlardır:

Spirtin ən çox zərər verdiyi orqan beyindir. Alkoqolun birbaşa təsiri onların düşünmə, qərar qəbul etmə və rasional hərəkət etmə qabiliyyətini zəiflətməsidir. Bu təsirlər spirt qəbulundan dərhal sonra baş verir və ciddi qəzalara, yaralanmalara və hətta ölümə səbəb olur. Spirt beyin hüceyrələrini öldürdüyü üçün beyin zamanla kiçilir və yaddaş zəifləyir. Erkən qocalmağa və demensiyaya səbəb olur.

Spirtli içkilərdən istifadə edən insanlar tez-tez yuxu pozğunluğundan və səhərlər yorğun oyanmaqdan şikayətlənirlər. Alkoqol xərçəng riskini çox artırır. Qida borusu, qırtlaq, mədə və mədəaltı vəzinin xərçənglərinə şərait yaradır. Həmçinin də ürək xəstəliklərinə səbəb olur. Ürəkdə aritmiya, ürək çatışmazlığı kimi problemlər yaradır. Hətta az miqdarda spirtli içki qəbul edənlər də ürək-damar xəstəlikləri riskini artırır.

Alkoqol baş ağrısına və ağız quruluğuna səbəb olur. Bədənin həddindən artıq su itirməsinə şərait yaradır.

Gözə gedən optik sinirlərin zədələnməsinə səbəb olur, zamanla korluğa səbəb ola biləcək problemlər yaradır.

Alkoqol qastrit və xora əmələ gəlməsinə səbəb olur. Vitaminlərin və digər qidaların orqanizm tərəfindən mənimsənilməsinin qarşısını alır.

SİA azyaşlıların spirtli içki istifadə etməsi ilə bağlı araşdırma apararaq ekspert, sosioloq, dietoloq, din xadimi və təhsil ekspertlərinin fikirlərini öyrənib.



**Din xadimi Mircəfər Əyyubov:** "İnsan bütün yaranmışlar arasında ən şərəfli məxluq hesab olunur. Bu şərəf ona məhz ağlına görə verilmişdir. Spirtli içkilər isə birbaşa insan ağlına zərbə vurması ilə xarakterizə olunur.

Bəşəriyyətin digər canlılardan imtiyaz və fərqlənmə meyarı olan ağlı zədələyən bir qidanın haram və qadağan olunması demək olar ki, aksioma dərəcəli bir mövzudur. Digər tərəfdən, uşaqlar bizim gələcəyimizdir. Gələcək nəsillərə ağılsızlıq aşılayan içkiləri verə və ya sataraq pul qazanan bir nəslin nə qədər məsuliyyətsiz və təqsirkar olduğu hamıya, hətta onların özlərinə də aydındır. Spirtli içkilərin cinayətkarlıq ilə sıx əlaqəsi də danılmazdır. Təsadüfi deyil ki, məhkəmələrdə və ya qanun mövzulu televiziya proqramlarında "içkili idim" İfadəsi bəraət kimi səslənir. Deməli, içki bir insan üçün hərəkətlərinə nəzarəti itirəcək qədər ziyan vura bilir. Belə bir qidanı uşaqlara vermək isə ictimai bir cinayətdir".



**Psixoloq Zeynəb Eyyubova:** "Spirtli içkilərlə uşaqlar ilk öncə ailədə ad günlərində və xeyir işlərdə tanış olurlar. Azərbaycanda bəzi ailələr spirtli içkiləri hətta uşağın alnına, burnuna vurmaqla zarafat edirlər. Bəzi ailələr də su əvəzi gülmək üçün uşağa onu içirir. Yəni, uşağı ailə bunlarla tanış edir.

Daha sonra bəzi valideynlər uşaqlarını markətə spirtli içki almağa göndərirlər. Sonra isə məktəb yaşlarında uşaqlar sadə enerji içkiləri ilə tanış olur. Buradan da onlar spirtli içkilərə gedib çıxırlar.

Lakin bəzi valideynlər isə övladının spirtli içki içməsindən xəbəri olmur. Bu da valideynin uşaqla olan məsafəsindən, uzaqlığından irəli gəlir. Qarşısı alınmaq üçün ailə uşaqla dost olmalıdır ki, övlad da sirrini ona ver bilsin".

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov:** "Mən Azad İstehlakçılar Birliyinin sədri olmaqla bərabər, həm də çoxuşaqlı ata və eləcə də pedaqoqam. Bu problem illər boyu ölkəmizdə yaşanır. Çox təəssüf ki, azyaşlıların içki içməsi məsələsi və Rusiyadan, qərb ölkələrindən Azərbaycana doğru keçən bu pis adət sovet vaxtı bizə nüfuz edib. Təəssüflər olsun ki, bugün də davam edir və hələ bir az da üstələyir.

Əgər valideyn və yaxud məktəb müəllimi şagirdinin yanında içirsə və yaxud valideyn övladının yanında içirsə əlbəttə belə hallar baş verəcək. Mən ömrüm boyu bu məsələni izləmişəm. Bir qohumum var idi. Mən onda pedaqoq işləyirdim və onlara qonaq getmişdim. Masanın üstünə spirtli içki qoydu və 7 yaşında uşağına da süzüb verdi. Bu məsələnin üstündən təxminən 50 il keçib. Mən o uşağın taleyini çox izlədim və heç də yaxşı olmadı. Rusiyada qaynadı, qarışdı. Orada məhv oldu getdi.

Bu misalı çəkməyə məcburam. Əlli il öncə biz ali məktəbi qurtarmışıq. Qrupun nümayəndəsi olmuşam. Ona görə son 15 ildə salamat qalmış qrup üzvlərimizi toplayıram. Bir qayda olaraq qo-



naqlıq məsələlərini öz boynuma götürürəm. İki il bundan öncə rayonların birində yaşayan tələbə yoldaşımız öz nəvəsi ilə gəlmişdi. Nəvənin də 6 yaşı olardı. Qrup yoldaşım içəndi. O dedi ki, içirəm və nəvəsi də dedi ki, mənə pivə gətirin. Özü də qrup yoldaşım pedaqoqdur. Mən dedim pivəni gətirin. Dinməz-söyləməz baba nəvəsinə pivə süzdü verdi. Mən indi nə qədər ömrüm var, o uşağın sonunu izləyəcəm. Uşağın artıq 9-10 yaşı var. Belə anormal hallar çoxdur.

Ardı Səh. 12

# Spirtli içkilər və siqaret gəncləri uçuruma aparır





ARAŞDIRMA

Əvvəli-Səh-11

Mən sonra ona təklikdə dedim ki, "Bu nə məsələdir?!" Dedi ki, "Uşağın könlü istəyir, qoy verək" və s. Belə hallar əlbəttə ora gətirib çıxarır ki, o uşaqlar müəyyən müstəqilliyə çatanda bununla aktiv məşğul olurlar.

Türk kinolarında bəzən içki içmək amillərinə baxanda çox təəssüflənirəm. Deyirəm ki, kaş nə türk, nə qədim, nə də yeni kinolarda bu anı göstərməyəydilər. Mən qatı dindar deyiləm. Yəni, vaxtaşırı məscidə gedən bir dindar deyiləm. Lakin bizə qismət olmuş bu dinlə fəxr edirəm. Düşünürəm ki, İslamın dediklərini yerinə yetirsək çox sağlam bir nəsil olarıq və sağlam bir həyat tərzi keçirərik.

Öz sağlamlığını məhv edən insanların sayı artır. Rusiyanın bu mədəniyyətsizliyi bizə də daxil olur. Bu içkilər birmənalı şəkildə uşaqlara satılmamalıdır. Valideynlər, pedaqoqlar və aiddiyyatı qurumlar məsələni diqqətdə saxlamalıdır. Bu içkilərdən zəhərlənənlərin sayı çoxdur və bunun axırı yoxdur".



**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Çox təəssüflər olsun ki, qanunvericilikdə dəyişiklik olsa da, İnzibati Xətalar Haqqında məcəllədə müddəalar sərtləşdirilsə də tütün məmulatları və alkoqollu içkilərin azyaşlı uşaqlara satılması halları get-gedə artır. Fikirləşirəm ki, bu mənada Azərbaycanda bir çox xarici ölkələrdə olduğu kimi sərt cəza növlərinin tətbiq edilməsinə böyük ehtiyac duyulur.

Hansı supermarket, maqazin və yaxud da köşk qanundan kənar azyaşlılara tütün məmulatları və alkoqollu içkilər satırlarsa o dəqiqə onların lisenziyaları ləğv edilməli, maqazin bağlanmalı və eyni zamanda həmin insanı inzibati yox, artıq cinayət məsuliyyətinə cəlb edilməlidir. Fərqi yoxdur bunu birinci dəfə, ya ikinci ya üçüncü dəfə törədib.

Azərbaycanda valideynlərin özlərində də böyük təqsir var. 1-2 mərtəbə və yaxud da 16-cı mərtəbədən liftlə yerə enmək istəməyən, aşağıdakı supermarketə getməyən valideynlər bəzən öz uşaqlarını bu cür qanunu pozmağa cəlb edir. Ticarətçilər də bilirsiniz ki, nə qədər çox mal satsalar bir o qədər onların işi yaxşı gedər, xeyir götürərlər. Ona görə də bəzi hallarda göz yumurlar.

Qonşu Rusiyada nəinki alkoqollu və tütün məmulatları, həm də energetik içkilərin məktəblərdə satılması qəti qadağandır. Məktəb yaşlı yeniyetmələrin və 18 yaşdan aşağı şəxslərin bu sadaladığım məhsulları almağa ümumiyyətlə icazələri yoxdur. Bu tətbiqlər məncə Azərbaycanda da olmalıdır. Çünki Azərbaycanda bununla bağlı çox böyük problemlər yaşayırıq.

Bugün ata-ana uşağını pivəyə, siqaretə göndərirsə sabah yüz faiz bilməlidir ki, onun uşağı narkotik tərkibli maddələrin həm istifadəçisi, həm də satıcısına çevriləcəklər. Təəssüflər olsun ki, bunu dərk etməyən çoxlu valideynlərimiz var.

Son vaxtlar Daxili İşlər Nazirliyi əvvəllər kilo ilə tutduğu narkotik maddələri indi artıq tonlarla, 100 kiloqramlarla müəyyən edir. Nəticədə də təbii olaraq mütəşəkkil dəstə üzvləri həbs olunur. Azərbaycan əhalisinin də 60 faizi yeniyetmə, uşaq və gənclərdən ibarətdir. Ona görə də bizdə sintetik narkotik maddələrin ucuz qiymətə həm satışını təşkil etmək, şəbəkə qurmaq, həm də uşaqları da buna otuzdurmaq asanlaşıb. Hətta bir neçə məktəbin ətrafında belə narkotik maddələri konfetin içərisinə qoyub satanlarla bağlı xəbərlər də sosial şəbəkələrdə gəzirdi. Əlbəttə qeyd etdiyim kimi bugün alkoqollu içkilər pivələr, energetik içkilər alan məktəbli, şagird sabah rahatca narkotik maddələrin də alıcısına, istifadəçisinə çevrilə bilər. Ona görə də burada sərtləşdirici tədbirlərə ehtiyac var".



**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, hal-hazırda Azərbaycanda 4432 ümumtəhsil məktəbində 1,6 milyon şagird təhsil alır. Məktəblərin 320-si paytaxt Bakıda yerləşir. Məktəblərdə satışı qadağan edilmiş spirtli içkilər, tütün məmulatları yaxın ətraf ərazilərdə şagirdlərə satılır. Bu yaxşı hal deyil. Çünkü bu məmulatlardan istifadə edən şagirdlər yaş xüsusiyyəti, həm də psixoloji baxımından ciddi tarvmalara məruz qalırlar. Həmçinin, belə şagirdlərin tədris göstəriciləri ilə bağlı ciddi problemlər müşahidə edilir.

Son dövlər məktəblilər arasında mədə-bağırsaq problemləri çoxalıb. Bunun səbəbləri də spirtli və enerji içkilərinin satışıdır. Ciddi monitorinqlər aparılmalı, nəzarət və cəza mexanizmi tətbiq olunmalıdır".

***Ayşən Vəli***

---

# Şükür sənə, İlahi!



Felyeton

***İndi bir xatırlama edəcəm. Yəqin buna gülənlər çox olacaq. İnanmayanlar ondan çox olacaq. Tərəddüd edənlər daha da çox olacaq. Geridə qaldığımı zənn edənlər isə qat-qat çox olacaq. Nə deyirsiniz deyin, istəyirsiniz gülməkdən uğunun, keçirəm mətləbə.***

Bəzən kitab oxuduğumuz o illərin o unudulmaz günlərini elə həsrətlə xatırlayıram ki... Nə qədər kitab oxuyurdıq, İlahi... Günlərimiz kitabxanalarda keçirdi. İki gündən, üç gündən bir kitab alıb evə gətirirdik. Bizə hansısa bir iş tapşıran valideynlərimizdən oğurlanıb mütaliə edirdik. Dərslərimizi hazırladıqmı, işimiz gizlində-aşkarda, orada-burada ancaq kitab oxumaq olurdı. Kitablar da o qədər maraqlı idi ki, bitirmədən gözümüzə yuxu getmirdi. Dəfələrlə "Ay bala, o işığı söndürün, yatın, ta gecdir",-deyən ata-anamıza hər dəfə "Yaxşı, indicə söndürürük",-deyərək gecə yarısı kitabı bitirib, sabah yenə kitabxanaya gedir, yeni kitablar alırdıq. Desəm ki, kitabxanalarda ta oxunmamış kitab qoymamışdıq qala, bu dəfə daha ucadan güləcəksiniz. Neynim, gülün də. Ancaq vallah belə idi.

Bir də ki, bizim dünənimizə kimsə gülərsə, biz nə yaxşı onun bu gününə gülməyək?.. Biz gözümüzü kitabdan ayırmırdıq, siz telefondan ayırmırsınız. Bizə "Ay bala, bu qədər kitab gözlərinizi kor edəcək" deyirdilər, sizə "bu telefonlar gözünüzü kor edəcək" deyirlər. O vaxt əksəriyyət başı aşağı kitab oxuyurdu, indi haradayıqsa- evdə, küçədə, nəqliyyatda, orada əksəriyyətin başı aşağı, gözü telefondadır. Yaxşı, biz kitab oxuyurduq, bəs siz nə edirsiniz başı aşağı? Vallah, düzü bilmirəm günün bu qədər saatını orada nə axtarırlar. Ancaq həqiqətən çox maraqlıdır nə axtardıqları. Axşamadək barmaqlar bir saniyə dincəlmir: axtarır, yazır, pozur... Bircə onu bilirəm ki, barmaqlar nə qədər işləyirsə, beyin bir o qədər yorğun düşür. Lakin kitab oxuyarkən beyin dincəlir, zehin açılır.

Mətləbdən uzaqlaşmayaq. Bu günlərdə metroda yenə əksər başı aşağı, gözü telefonda hər yaş qrupundan olan insanları müşahidə edərkən başı aşağı kitab oxuduğumuz o illəri xatırladım. Öz-özlüyümdə xeyli müqayisə apardım. O vaxtlar elə bu metroda da kitab oxuyanlar çox idi. Nə oldu görəsən, niyə kitablar qatlanıb bir kənara atıldı? Bir andaca kitabların o möhtəşəm ətri gəldi burnuma. Harada qaldığımızı bəlli etmək üçün qatladığımız səhifələr... Saxlanc yerimiz olan səhifələr... Orada saxladığımız şəkillər, quruyub səhifələrin arasında özünə yer edən xatirələr dolu güllər... Bəlkə indi də hansısa kitabxanada kitabların arasındaca qalır onlar. Kitabxanalarda digər "yaşayanlar" kimi.

Görəsən niyə kitabları telefonlara dəyişdik? Telefonlar da o kitablar kimi saxlanc yeri ola biləcəkmi? Yəni içindəki minlərlə şəkilləri, xatirələri əbədi saxlaya biləcəkmi? Yoxsa bir an internet itərsə, şəkillər də, xatirələr də itəcəkdir. Ən əsası isə görəsən kitabların insana verdiklərini 100 il bundan sonra telefonlar verə bilərmi?

Elə bu düşüncələrlə o illərlə bu illər arasında var-gəl edərkən bayaqdan dəfələrlə məsafə saxlamağın zəruri olduğu elan olunan vaqondakı sıxlıq yaxın stansiyalardan birində seyrəldikdə oturacaqlardan birində kitab oxuyan bir gənc oğlan gördüm. Nə qədər sevindimsə, məmnun oldumsa, dəfələrlə öz-özümə "Şükür sənə, İlahi",-dedim.

***Mətanət MƏMMƏDOVA***

# Boris Qrozovski: “Sanksiya müharibəsi Azərbaycanın ixrac gəlirlərinin artmasına səbəb olacaq”



***Rusiyaya qarşı sanksiyalar tətbiq edən ölkələr də itkilərə məruz qalır. SİA xəbər verir ki, bunu rusiyalı iqtisadçı ekspert, "EventsAndTexts" teleqram kanalının sahibi Boris Qrozovski Qərbin sanksiyalarının Rusiya iqtisadiyyatı üçün nəticələrini Caliber.Az-a şərh edərkən deyib.***

ŞƏRH

“Sanksiya tətbiq edən ölkələr gəlir və mənfəət payını itirir, bazar olaraq Rusiyanı itirirlər. Onların təchizat zəncirləri məhv edilir. Rusiyadan neft və qaz tədarükünə qoyulan embarqodan danışan B.Qrozovski gərgin atmosferin enerji daşıyıcılarının qiymətlərinin artmasına səbəb olacağını qeyd edib.

”Bazarlardakı əsəbi vəziyyət və Rusiya Federasiyasından neft və qazın tədarükünə embarqo enerjinin qiymətini artıracaq. Bu, ona gətirib çıxaracaq ki, Azərbaycanın ixrac gəlirləri artacaq və gələcəkdə tədarüklərin həcmini artırması mümkün olacaq”,- ekspert hesab edir.

B.Qrozovski vurğulayıb ki, anti-Rusiya sanksiyaları şübhəsiz ki, qlobal iqtisadiyyata təsir edəcək: ”Ancaq indi biz qlobal iqtisadiyyat haqqında deyil, nüvə müharibəsinin qarşısını almaqla, Ukraynada müharibəni necə dayandırmaq barədə düşünməliyik”.

***Tərcümə - Elçin Bayramlı***

# Seyfəddin Əliyev: “YAP-ın ölkəmizin hər bir uğurunda öz payı və rolu vardır”



***“Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən bir il ərzində ölkəmizin həyatında baş verən yeniliklər, həyata keçirilən islahatlar prosesi daha da dərinləşib və bütün bunlar eyni zamanda tarixi Qarabağ Zəfərimizin yaratdığı gerçəkliklərin sübutudur". Bu fikirləri SİA-ya YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib. Onun sözlərinə görə, 1992-ci il 21 noyabr tarixində xalqın, zamanın tələbi və zərurəti ilə yaradılan Yeni Azərbaycan Partiyasının fəaliyyəti Azərbaycanda siyasi sabitliyin təmin olunmasına xidmət edib və bu gün də etməkdədir.***

”91 nəfər Azərbaycan ziyalısının ölkənin, xalqın xilaskarı kimi məhz Ümummilli Lider Heydər Əliyevə tarixi müraciəti, eləcə də Ulu Öndərimizin onlara tarixi cavabı dövlətçilik tariximizin səhifəsində yeni səhifə açmış oldu. Ümummilli Liderimiz Heydər Əliyev sınmaz iradəsi və qətiyyəti ilə Vətəninə, xalqına bağlılığı ilə siyasi təməllərə imza atdı, Azərbaycanın parçalanmasına, məhv olmasına qarşı müdrik siyasəti ilə çıxdı”, deyən Seyfəddin Əliyev bildirib ki, ölkə Prezidenti, YAP-nın Sədri cənab İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında bir daha yarandığı gündən tutduğu yola, prinsiplərinə sadiqliyinə, sözlə əməl birliyinə görə xalqın sevgisini və etimadını qazanan Yeni Azərbaycan Partiyasının ölkəmizin hər bir uğurnda öz payının, rolunun olduğunu önə çəkdi, Heydər Əliyev ideologiyası əsasında uğurların qazandığını vurğuladı: ”Ölkə rəhbərimiz əminliklə vurğulamışdır ki, partiya bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Azərbaycanın müstəqilliyinin yenidən bərpasının 30 ilinə şahidlik edən partiyanın əsas hədəflərindən biri müstəqilliyimizi əbədi və sarsılmaz etmək olub. O cümlədən, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza tarixi Zəfərin sevincini yaşatdı, adını tarixə torpaqlarımızın xilaskarı, qalib Sərkərdə kimi yazdı”.

Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul olunmuş qərarların partiyanın fəaliyyətində keyfiyyət etibarilə əhəmiyyətli dəyişikliklərə səbəb olduğunu önə çəkən Seyfəddin Əliyev əlavə edib ki, YAP dünənin, bu günün və gələcəyin partiyası olduğunu bütün dövrlərdə qoruyur və cəmiyyətin avanqard qüvvəsi kimi yeri və rolunu möhkəmləndirir: ”VII Qurultayda ən əlamətdar hadisələrdən biri məhz Birinci vitse-prezident Mehriban xanım Əliyevanın partiya sədrinin birinci müavini seçilməsi oldu. Mehriban xanım Əliyevanın uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətindən Yeni Azərbaycan Partiyasının bəhrələnməsi partiyanın gələcək inkişafına mühüm töhfələr verəcəkdir. Bu isə ilk növbədə Yeni Azərbaycan Partiyasının yeni idarəetmə modelini özündə ehtiva etməsindən xəbər verir. Yeni Azərbaycan Partiyası dəfələrlə xalqın etimadını doğruldaraq ümumxalq partiyası adını qazanmış partiyadır. Məhz bu səbəbdən də bir sıra partiyalar VII Qurultayda Yeni Azərbaycan partiyasına qoşulmaq qərarına gəldilər. Bu hal isə təbii ki, siyasi dialoqun və milli həmrəyliyin təzahürü hesab edilməlidir”.

***Rəfiqə HÜSEYNOVA***

# “Nar” ardıcıl üçüncü il Müştəri Loyallığı İndeksində lider oldu

***2021-ci ilin Müştəri Loyallığı İndeksi nəticələrinə görə mobil operatorlar arasında ”Nar” ən yüksək nəticə göstərərək birinciliyini qoruyub. Ötən illə müqayisədə ”Nar”ın Müştəri Loyallığı İndeksi 2021-ci ildə 50% yüksəlib. ”Nar” 2019-cu ildən etibarən Müştəri Loyallığı İndeksi üzrə yerli mobil rabitə bazarının lideridir.***

Şirkətin Baş İcraçı Direktoru Qunnar Panke əldə olunan nəticədən dolayı qürur duyduğunu bildirir. ””Nar” olaraq bütün fəaliyyətimizi son nəticədə müştərilərimizin rahatlığına fayda verəcək şəkildə qurmuşuq. İstər yeni məhsullar hazırlayarkən, istərsə də mövcud xidmətləri təkmilləşdirərkən abunəçilərimizin rəylərini öyrənirik və tətbiq edirik. Bu liderliyi Azərbaycan kimi rəqabətcil rabitə bazarında 3 il boyunca saxlaya bilmək bizim üçün çox böyük uğurdur.”

”Nar”ın sərfəli təklifləri, mobil internet xidmətlətinin keyfiyyəti və müştəri xidmətlərinin üstünlüyü Müştəri Loyallığı İndeksini üzrə lider mövqeyinin qorunub saxlanmasının əsas faktorları olub. ”Nar” mağazalarının yenilənərək müştərilər üçün daha rahat xidmət şəraitinin yaradılması, ”Nar+” tətbiqinin təkmilləşdirilməsi ilə abunəçilərin balanslarına daha asan nəzarət etməsi və həmçinin davamlı gücləndirilən mobil şəbəkə mobil opeartorun müştəriyönümlülük strategiyası çərçivəsində həyata keçirilir. Mobil operatorun müştəriyönümlülüyü özünün əsas iş istiqaməti kimi müəyyən etməsi abunəçilərin razılığının məhz bu yöndə xüsusi seçilməsinə səbəb olub.

Qeyd etmək lazımdır ki, Müştəri Loyallığı İndeksinin (Net Promoter Score - NPS) müəyyən edilməsi mobil operatordan asılı olmayan, müstəqil qurumlar tərəfindən beynəlxalq təhlil standartlarına uyğun sorğular əsasında aparılır. Bir qayda olaraq, sorğuda iştirak edənlər istifadə etdikləri xidməti yaxınlarına, dostlarına, qohumlarına məsləhət görərdilərmi sualına 10 ballıq qiymətləndirmə ilə cavab verirlər.

# “Bir ovuc erməni silahlısı o qədər qudura bilməz ki,...”

“Müvəqqəti olaraq Qarabağda yerləşən Rusiya sülhməramlı kontingentinin nəzarətində olan ərazilərdən Azərbaycan ordusunun mövqeləri və yaşayış məntəqələrinin atəşə tutulması ilk dəfə deyil ki, baş verir. Lakin belə bir intensivliyi birgə bəyanatın imzalanmasından sonra keçən 14 ayda ilk dəfədir ki, müşahidə edirik. Hesab etmirəm ki, belə bir fəaliyyətlər Rusiya sülhməramlılarının dəstəyi olmadan həyata keçirilə bilsin”. Bu sözləri SİA-ya açıqlamasdında hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, bir ovuc erməni silahlısı o qədər qudura bilməz ki, Azərbaycan ordusunun mövqelərini 4 istiqamətdə və bir gündə 23 dəfə pozsun: ”Odur ki, Azərbaycan artıq bu məsələdə kifayət qədər ciddi və çəkindirici addım atmalıdır. Bu addımlardan biri də atəş açılan mövqelərin dərhal məhv edilməsidir. Orada sülhməramlıların olub-olmaması bizə maraqlı deyil”.

Ekspert sözlərinə belə davam edib: ”Müdafiə Nazirliyi atəş açılacaq mövqelərə zərbə endirilməsi barədə Rusiya sülhməramlılarına yanlız bir dəfə məlumat xarakterli bəyanat göndərməli, bundan sonra isə istənilən atəş açılan nöqtənin məhv etməli, orada Azərbaycan Ordusunun heyətini yerləşdirməli və bayrağımız qaldırılmalıdır. Bundan sonra onlar anlayacaq ki, atəş açmaq olar ya yox.




Ümumilikdə isə Birgə bəyanatın 4-cü bəndinin yerinə yetirilməsi üçün konkret müddətı təyin etməliyik. Əgər bu müddətdə Rusiya sülhməramlıları vəzifələrini yerinə yetirməzlərsə Azərbaycan tərəfi öz imkan və funksiyaları ilə öz ərazilərinin ermənilərdən təmizlənməsini müstəqil olaraq həyata keçirməlidir”.

***Ayşən Vəli***

# Oğlan, yoxsa qız övladı?..

**FELYETON**

***Peyğəmbərimizin "Övladlarınız arasında fərq qoymayın, əgər qoymaq lazım gəlsəydi, mən qızlarıma üstünlük verərdim" kimi dəyərli kəlamı var. Lakin zaman-zaman şahidi oluruq ki, əksər insanlar nədənsə oğlan övladına qızdan üstün baxırlar. İnsanlar psixoloji amillərin təsiri ilə, xüsusilə ata nəslinin, ocağın davam etməsi arzusu ilə ailədə, heç olmasa, bir oğlan uşağının doğulmasını istəyirlər.***

Gözlədikləri oğlan uşağı doğulmadıqda ər arvadını məzəmmət edir, qadın da oğlan istədikləri halda qız olduğu üçün haqsız yerə özünü günahkar sayır. Quranın Nəhl surəsinin 58-59-cu ayələrində buyurulur ki, İslamdan əvvəlki cahiliyyə dövründə ərəblərdən birinə "qızın oldu" xəbərini verdikdə o, həddindən artıq kədərlənər, üzü qəm-qüssədən qapqara qaralar, xalqdan gizlənməyə çalışar, yenicə doğulmuş qız uşağını utana-utana əlində tutar, yaxud da onu diri-diri torpağa basdırarmış. Ölkəmizdə də hər zaman oğlan uşağı qızdan daha çox arzulanıb, bu, faktdır. Bir-birinin ardınca doğulan qız uşaqlarına görə dağılan ailələrin də sayı çox olub, oğlan övladı dünyaya gələnədək kəskin qayınana-gəlin münasibətləri də olub, hər kəs tərəfindən haqsız yerə qınanılan analarımız da olub. Hətta oğlan övladı ilə qız övladına münasibətdə kəskin fərq ötən əsrin əvvəllərində ölkəmizdə o dərəcədə özünü büruzə vermişdir ki, "Molla Nəsrəddin" jurnalında da həmin mövzuya münasibət bildirilmişdir. Aşağıdakı karikaturalar o dövrdə ailələrimizdə dünyaya gələn oğlan və qız övladlarına münasibəti aydın şəkildə əks etdirir. Oğlan uşağı dünyaya gələndə qız uşağı dünyaya gələndə Zəmanəmizdə də ümumiyyətlə, qız övladını istəməyən adamlar çoxdur. Yaxud da bir və ya iki qız övladı olan, növbətinin hökmən oğlan olması arzusu ilə yaşayır. Bizim cəmiyyətimizdə yeni ailə quran gənclərə, yaxud uşaq gözləyən gəlinlərə, övladı olmayan adamlara deyirlər: - "Allah sizə şirin bir pay versin". Yaxşı bilsəm də ki, bu şirin pay deyiləndə nə nəzərdə tutulur, lakin hər dəfə bu sözləri yenidən eşidəndə onu ikrah hissi ilə qarşılamışam. Bu yaxınlarda belə bir deyimlə yenidən qarşılaşdım. Orta yaşlı bir qadın uşaq gözləyən qadınla söhbətinin sonunda "Allah sənə şirin bir pay versin" deyirdi. Yenə də həmişəki ikrah hissi ilə soruşdum: - "Siz şirin pay deyəndə nəyi nəzərdə tutursunuz?". Cavabımı belə aldım: - Oğlan uşağını deyirəm də... Mən də ona belə dedim: - Məgər qız acı paydır? Qadın tutuldu və "Yox, amma oğlan daha yaxşıdır axı. Oğlan düşmən çəpəridir, kökün daşıyıcısıdır",- dedi. İçimdə yeni bir ikrahın baş qaldırdığını hiss etdim və dedim: "Bəs o düşmən çəpəri dediyiniz övladları kim gətirir dünyaya? Acı pay hesab etdiyiniz qızlar gətirmirmi? Deyirsiniz ki, oğlan düşmən çəpəridir. Bizim qızlarımız da elə oğlanlarımız kimi yeri gələndə düşmən çəpəri olurlar. Onlar nə vaxt kişilərdən bir addım geri qalıblar ki?..". Qəribədir ki, bəlkə də kişilər oğlan övladını qadınlardan çox arzulayırlar. Ancaq bu istəklərini qadınlar qədər qabartmırlar. Özümüz qadın ola-ola hər kəsə "şirin pay" arzulayırıq. Lakin dərk etmək lazımdır ki, oğlan, yaxud qız olsun, fərqi yoxdur, ta ki sağlam, yaxşı, xeyirli övlad olsun. Elə bir adam tapılmaz ki, o, qonşuluğunda, qohumları arasında yaxşı və yaxud pis övlada rast gəlməmiş ola. Bu, qız da ola bilər, oğlan da. Bir ailə tanıyırdım, dörd oğlan övladı var idi. Ata vəfat etmişdi, ana isə tək yaşayırdı. Övladları uzaqda deyildilər, amma anadan ayrı yaşayırdılar. Günlərin birində ana vəfat edir, oğlanları iki gündən sonra xəbər tuturlar. Bunun əksi olaraq çox sədaqətli, ata-ana qədrini bilən övladlar var ki, xəstə, yaşlı valideynlərinə ömrünün sonunadək böyük hörmətlə yanaşır, onları əzizləyir, qayğılarını çəkirlər. Oğlan övladına olan istəyi USM müayinələri son illərdə o həddə gətirib çatdırmışdır ki, 2011-2015-cü illərdə doğulan uşaqların statistik məlumatlarına görə hər 100 qıza 116 oğlan düşürdü. Bu nisbətə görə Azərbaycanın dünyada Çindən sonra ikinci yeri tutduğu qeyd olunurdu. Sosialoqlar hesablamışdılar ki, belə davam edərsə, 2020-ci ildə doğulan hər dörd oğlana bir qız düşəcək. Bu isə demoqrafiyanın pozulması, gələcəkdə böyük problemlərin yaranacağına yol açılması deməkdir. 2017-ci ildə ölkəmizdə doğulan uşaqlarm 53,1 faizini oğlanlar, 46,9 faizini qızlar təşkil edib. 2020-ci ildə isə doğulan 126 571 uşağın 67 407 nəfəri oğlan, 59 164 nəfəri isə qız olub. Bu da balanslaşmada yenə də xeyli fərq var deməkdir Burada elimizin bir deyimini xatırlayıram: - "Qız qaldıqca qızıla dönər". Lakin belə davam edərsə, deyəsən qız tapıb evlənmək oğlanlar üçün qızıl tapmağa bənzəyəcək. Düşünürəm ki, ailələrimizdə oğlan və ya qız övladları arasında ayrı-seçkilik olmamalıdır. Biz həyata özümüz gəlmədiyimiz kimi, alın yazımızı da özümüz müəyyənləşdirmirik. Hər kəsin övlad payı Ulu Yaradan tərəfindən göndərilir. Bir övlad üçün illərlə gözləyənlər var, bunu da unutmayaq. Həmin ailələr oğlan və ya qız olsun, bu barədə düşünmürlər, Allahdan tək bir övlad istəyirlər. Cəmiyyətimizdə əsas meyarlardan biri ailədə qadınlarla yaxşı rəftar etməkdir ki, İslam dini bunu çox təkidlə buyurur. Belə ki, hətta qadınları Allahın əmanətləri kimi təqdim edərək onların hüquqları barəsində azacıq belə laqeydliyi, etinasızlığı, diqqətsizliyi ilahi əmanətə xəyanət hesab edir. Məhəmməd Peyğəmbər (s) qızı Fatiməni Əli ibn Əbutalibin (ə) evinə köçürən zaman "Ya Əli, qızım sənin əlində əmanətdir", - buyurur. Qız övladına daim üstünlük verən Məhəmməd peyğəmbər belə bir dəyərli fikir də söyləyirdi: "Kim iki qıza baxıb yetkinlik çağına qədər onları yetişdirərsə, Qiyamət günündə o, mənimlə belə olar". (Peyğəmbər belə deyib barmaqlarını bir-birinə keçirmişdir). Belə isə yenə də düşünüb-daşınıb cəmiyyətimizi oğlan və qız övladları arasında bu xoşagəlməz fərq qoymadan xilas etməliyik. Qoy ta ki evlərimizdən uşaq səsi gəlsin. İstər oğlan, istər qız olsun, fərqi yoxdur.



***Mətanət MƏMMƏDOVA***



**Təhmasib Novruzov**

# Üçüncü dünya müharibəsi ola bilərmi?

Düz on beş gündür dünyanın bir nömrəli problemi olan Rusiya-Ukrayna savaşı mətbuatı, sosial şəbəkələri, efirləri zəbt edib. Təbii ki, belə də olmalıdır. Çünki bu savaşın nəticəsi dünyanın yeni düzəninin formalaşmasında tarixi bir hadisə olacaq. Mənə tez-tez bu haqda yazmamağıma görə suallar verənlər də var. Onları da anlayıram. Belə bir ümumbəşəri hadisəyə seyrçi qalmaq nəinki yazı adamına, ən sıravi insana da yaraşmır.

Amma mən bütün qınaqlara rəğmən susdum. Susdum, ona görə ki, istədim bilim görüm bizim özünü "siyasətçi", yaxud "blogger", və yaxud ekspert adlandıran bəzi-bəzi söz sahibləriniz bu hadisələrə hansı aspektdən yanaşacaqlar? Həm də bu yanaşma nə dərəcədə reallıqla ayaqlaşacaq! Dünəndən Rusiya tərəfinin atəşkəs elan etməsi bu qanlı tarixi olayda bir az fasilə yaratdığına görə, düşündüm ki, bu on beş günün yekunlarına mən də öz fikirlərimi bildirim. Bilmirəm, ağlım bir şey qaynada biləcək, bilməyəcək, amma mən də öz qandıqlarımdan beş-on kəlmə deməyə içimdə bir ehtiyac duydum. Bu on beş gündə hər kəs kimi məni də narahat edən hərbi əməliyyatların genişlənməsi, insanların, ən çox da gənclərin ambissiyalara qurban getməsidir. Bu, öz yerində. Amma bir türk əsilli Azərbaycan vətəndaşı olaraq bu qanlı savaşda həm Türkiyənin, həm də Azərbaycanın siyasi rəhbərliyinin nə qədər uzaqgörən, nə qədər təmkinli, həm də təmsil etdikləri dövlətlərin çıxarları baxımından nə qədər məsuliyyətli mövqe sərgiləmələri, səmimi deyirəm ki, məni içimdən qürurlandırdı. Bəzi ölkələr kimi, birmənalı bir tərəfi günahkar elan edib, ona qarşı hücumlara qoşulmamaqla, digər tərəfi bu savaşda tamamən günahsız kimi qəbul edib, onun mövqeyini birmənalı olaraq müdafiə etməməklə hər iki qardaş ölkənin siyasi rəhbərliyi, gerçək mənada müdrik siyasi dəst-xətt ortaya qoydular. Kimsə bu savaşın necə yekunlaşacağını proqnozlaşdıra bilməz. Baxmayaraq ki, belə proqnozlarla özlərini dünyanın gözünə dürtməyə çalışanlar çoxdur. Amma bu bir həqiqətdir ki, tarixin gedişatını dəyişəcək bu savaşın hər iki tərəfi - həm Rusiya, həm də ABŞ və Avropa İttifaqı birliyi kifayət qədər güclü, onun qədər də ambitsiyalı tərəflərdir. Üçüncü dünya müharibəsindən danışıb, insanları qorxu altında saxlamağa cəhd edən hər iki tərəfin bu savaşın olmayacağını gözəl bildiklərinə də qətiyyən şübhəm yoxdur. Ona görə yox ki, bu qütbləşmənin hər iki tərəfi dünyanın taleyini düşünürlər, ona görə ki, özlərini çox istəyirlər və yaxşı bilirlər ki, üçüncü dünya müharibəsi onların da həyatlarının sonu olacaq. Hələ 1977-ci ildə BMT-nin xüsusi komissiyasının araşdırmaları nəticəsində aydın olmuşdu ki, o dövrdə NATO üzvlərində və Varşava Müqaviləsi Təşkilatı üzvlərində (Əslində SSRİ-də) mövcud olan nüvə başlıqlarının üçdə birindən istifadə olunarsa, Yer kürəsi oxundan çıxar! İndi hesablayaq, NATO üzvləri və SSRİ-dən başqa digər ölkələr də daxil olmaqla 1977-ci ildən bəri nə qədər nüvə başlığı hazırlanıb! Bu hesabla indiki dünyada mövcud olan nüvə başlıqlarının onda birindən, bəlkə də on beşdə, iyirmədə birindən istifadə olunarsa, nə baş verəcəyini düşünmək belə dəhşətdir. İndi bizim kimi sadə adamların bildiyi bu gerçəkliyi dünyanı idarə edənlər bilmirlərmi? Deməli, üçüncü dünya müharibəsinin olması real deyil və belə mesajlar da, sadəcə bir-birini qorxutmağa hesablanıb. Belə olan təqdirdə, hər iki qütbün bir-birinə xırda-para hücumlar edərək, bir-birini qorxutmasının, sadəcə bir mənası var: özünü dünyada daha güclü göstərmək və dünyanın xırda xalqlarını təsiri altında saxlamaq! Bu istəyini həyata keçirmək üçün həm ABŞ və Avropa İttifaqının, həm də Rusiyanın nədən məhz Ukraynanı seçmələri isə çox dərin, həm də çox geniş yazının mövzusudur ki, bu kiçik köşə yazısında ona imkan yixdur. Sonda. Bizim bəzi özünü siyasətçi hesab edən siyasətbazlarımız da, onların toxuduqları (əslində toxumaq istədikləri, amma toxuya bilmədikləri) ələklərin "qıl"ını verənlər də, heç olmazsa bu qədər ciddi dünyəvi məsələdə şəxsi ambitsiyalarından çıxış etməklə, az müddət sonra utanmalı olacaqlarını düşünüb, daha ağıllı çıxışlar etsinlər, ya da heç danışmasınlar. Bu günümüzün reallığı Azərbaycan və Türkiyənin siyasi rəhbərliyinin tutduğu mövqenin daha doğru olduğunu diktə edir. Bu mövqe həm Azərbaycanın, həm Türkiyənin, həm də ümumən türk dünyasının maraqlarına ən uyğun mövqedir. İndi bunu anlamayanlar çox keçməyəcək ki, anlayacaqlar. Amma gərək elə edəsən ki, gerçəyi anlayanda danışmağa üzün olsun İndilikdə bu qədər!



# "Paşinyanın danışıqları onun səmimi olmadığını sübut edir"

"Söhbət Ermənistandan getdiyi halda səmimilikdən danışmaq sadəlövlük olardı. Nikol Paşinyanın bəyanatları və davranışları arasındakı fərq onun səmimi olmadığını sübut edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib. Onun sözlərinə görə, Paşinyan gah "status"dan danışır, gah sərhədlərin delimitasiya və demarkrasiyasının vacibliyindən, sülh müqaviləsindən danışır və sülh haqqında danışdığı vaxtda belə Ermənistan tərəfdən Azərbaycanın sərhədyanı rayonlarını atəşə tutulması davam edir: "Paşinyanın bu gün sülhdən danışması daha çox məcburiyyətdən irəli gəlir. Bu məcburiyyətin də bir neçə səbəbi var. Bunlardan birincisi Ukraynaya təcavüzü fonunda olduqca sərt sanksiyalarla üzləşən Rusiyanın maliyyə durumu və iqtisadi vəziyyətinin hər keçən gün daha da ağırlaşması ilə bağlıdır. Bu isə o deməkdir ki, Ermənistanın ən vacib iqtisadi tərəfdaşı olan Rusiyanın bundan sonra əvvəlki şəkildə Ermənistan iqtisadiyyatını ayaqda tutmaq imkanları minimuma enəcək. Rusiyadan yardım ala bilməməsi isə Ermənistanı çökdürə bilər. Üstəgəl Rusiyada yaşayan və ailəsinin dolanışığını həmin ölkədən təmin edən iki milyona yaxın erməni də çıxılmaz durumda qalacaq və bu da ölkəyə göndərilən maliyyə kütləsinin çəkisində azalmaya səbəb olacaq. Belə olan halda Ermənistanın baş naziri anlayır ki, bölgədə sülhün olması, kommunikasiyaların açılması bu ölkə üçün mövcud vəziyyətdən yeganə çıxış yoludur.

Çünki bölgədə Rusiyanın iqtisadi gücünü sığortalaya bilən tək qüvvə Türkiyədir. Türkiyə ilə münasibətlərin bərpası isə Azərbaycanla sülh müqaviləsi bağlamaqdan keçir. İkincisi güclü iqtisadi böhranla üzləşən Rusiyanın ayrı-ayrı ölkələrdə hərbi baza saxlamaq imkanları da minimuma enəcək və Ermənistan bu gedişlə rus hərbi kontingentinin Qarabağ ərazisindən və eləcə də Ermənistandan çıxacağından da narahatlıq duyur. Paşinyan anlayır ki, hətta həmin hərbi qüvvələr qalsa belə Rusiyanın Ermənistana olan himayəsi əvvəlki dövrlərdəki kimi olmayacaq. Ermənistanda olan hərbi bazaya və eləcə də Suriya və digər ərazilərdəki hərbi əməliyyatlara diqqət azalacaq. Odur ki, Paşinyanın indiki mərhələdə sülh sazişindən danışmaqdan başqa yolu yoxdur. Amma bu heç də o demək deyil ki, əgər Paşinyan sülhdən danışırsa demək ki, sülh istəyir. O sadəcə danışır. Danışıqlara yeni dəstəkçilərini, Qərb ölkələrini cəlb etmək üçün müəyyən vaxt qazanmağa çalışır".

***Banuçiçək***

***Dünya yeni ərzaq böhranı dövrünə qədəm qoymaqdadır. Ərzaq məhsullarının qiyməti durmadan bahalaşır. Buna qlobal istiləşmə və quraqlıq səbəbindən istehsalın azalması səbəb olur. Bu günlərdə isə Rusiya və Qərb arasında başlayan Ukrayna böhranı və tərəflərin bir-birilərinə qarşı tətbiq etdikləri sanksiyalar vəziyyəti daha da gərginləşdirib. Neft, qaz, əlvan metallar və sair məhsullardan başqa taxıl başda olmaqla ərzaq məhsulları da bahalaşır. Artıq Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin əhalisi bundan ciddi zərər çəkməkdədir. Bir qədər əvvəl bizdə də çörək və un məmulatları bahalaşdı, digər ərzaq məhsullarında da bahalaşma var.***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qlobal ərzaq böhranı və Azərbaycanın sığortalanma potensialı

## *Qlobal ərzaq böhranı aqrar sektorun inkişafını 1 nömrəli prioritet kimi qarşıya qoyur*

ANALİZ

Qlobal ərzaq qıtlığı problemi ən çox idxaldan asılılığı çox olan ölkələri təhdid edir. Azərbaycanda da zəruri tələbat məhsullarının təxminən yarısı idxal hesabına formalaşır. Nəticədə, dünyada həmin məhsulların bahalaşması ölkəmizdə də bahalaşmaya səbəb olur. Son aylarda ərzaq məhsullarında qiymət artımları tendensiya halını alıb.



İndi azad bazar dövrü olduğundan hökumət qiymətləri tənzimləyə bilməz və bu səbəbdən bunun qarşısını inzibati metodlarla almaq çətindir. Bu problemin həlli yolu ölkədə ərzaq istehsalının yüksəldilməsi və idxaldan asılılığın ləğv edilməsindən keçir.

Bazar iqtisadiyyatının və qiymət liberallaşmasının özünün qanunauyğunluqları var. Hökumətin qiymətin artmasının qarşısını yox, qiymətin dəyişməsi prosesi zamanı əhalinin rifahını qorumaq, alıcılıq qabiliyyətini təmin etmək, yəni, heç olmasa, sosial müdafiəyə ehtiyacı olan təbəqələrin vəziyyətinin pisləşməsinin qarşısını almaq üçün tədbirlər görməsi vacibdir. Dövlət büdcəsindən maaş və pensiya alan vətəndaşların gəlirləri artsa da, özəl sektorda və fərdi çalışanların gəlirləri artmayıb.

İnzibati üsullarla qiymət tənzimlənməsi o zaman mümkündür ki, ölkədə məhsul bolluğu var və qiymət artımı süni inhisarçılıq hesabına yaranıb. Amma hazırda qiymət artımlarının baş verməsi əsasən, xarici amillərin hesabına mümkün olur. Ölkədə istehsal olunan, amma əhalinin tələbatını ödəməyən məhsulları özəl şirkətlər və sahibkarlar idxal edirlər. Onlar da hər hansı malı baha aldıqda, baha da satmalıdırlar.

Kimisə hər hansı məhsulu xaricdən gətirib öz qiymətinə satmağa məcbur etmək olmaz. Bu vəziyyətdə dövlət aztəminatlı təbəqələr üçün güzəştli siyasət yürüdə bilər. Hökumət sosial və iqtisadi mexanizmlərlə bu prosesə təsir edə bilər, ancaq inzibati vasitələrlə heç nə etmək mümkün deyil.

Qiymət artımında xarici amillərin təsir payı böyük olsa da, daxili amillərin də təsiri olmamış deyil. Bunlardan bəzi istehsal və idxal sahələrində inhisarçılığı və yerli məhsulda qiymət artımını şərtləndirən stimullaşdırıcı tədbirləri göstərmək olar. Əgər ölkədə enerji daşıyıcılarının və suyun qiyməti bahalaşırsa, maya dəyərinin bundan asılı olduğu məhsulların qiymətinin artması təbiidir.

Qiymət artımında daha bir əsas amil də inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır.

Dünya bazarında qiymətlərin artması o demək deyil ki, bu ölkədə ucdantutma bütün məhsulların bahalaşmasına səbəb olmalıdır. Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma asan olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.



Məsələn, ABŞ və əksər Avropa ölkələrində, həmçinin, Rusiya və Türkiyədə dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətinə alınacağı haqda öncədən müqavilə bağlanır.



Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını, və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sektorun konseptual inkişafı üçün ciddi bir proqrama ehtiyac duyulur. Buraya ərzaq təhlükəsizliyi də daxildir. Ərzaq təhlükəsizliyi həm də kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Kənd təsərrüfatı isə yeyinti sənayesi və yüngül sənayenin inkişafı üçün birbaşa mənbədir.

Dünyanın inkişaf etmiş ölkələrində gəlirinin 30 faizini ərzağa xərcləyən insanlar yoxsul hesab olunur. Azərbaycanda isə, əhalinin azı yarıdan çoxu öz gəlirlərinin təxminən 50 faizindən çoxunu ərzağa xərcləməyə məcburdur.

Hazırda Azərbaycan əhalisinin istehlak etdiyi ərzaq məhsullarının təxminən yarıya qədəri idxal hesabına formalaşır. Bu səbəbdən də, Azərbaycan bazarını ucuz bazar saymaq olmaz. Yerli bazarda əsas tələbat mallarının qiyməti xarici ölkələrdəki ilə eynidir və ya bəzi hallarda ondan da bahadır.

Azərbaycanda aqrar sektorun inkişafına milyardlarla manat vəsait ayrılır. Dövlət dotasiyalar, subsidiyalar verir, müxtəlig güzəştlər, yardımlar tətbiq edir. Bu sahədə müəyyən naliyyətlər əldə olunub, lakin hələ də potensialımızdan xeyli aşağı göstəricilərə sahibik. Deməli, qəbul olunan dövlət proqramlarının icrası effektli aparılmayıb və bu məsələyə daha ciddi diqqət verilməlidir.

Qarşıdan qlobal ekoloji problemlər (quraqlıq, su çatışmazlığı və s) və ərzaq qıtlığı gəlir. Belə bir şəraitdə aqrar sektorun inkişafı ən prioritet məsələyə çevrilməlidir. Bu sahədə xüsusi geniş dövlət proqramının qəbul olunması və kompleks tədbirlərin görülməsi vacibdir.

***Elçin Bayramlı***

Səs
10 mart
2022-ci il

# Limfa düyünlərinin böyüməsinin səbəbləri və TƏBİİ ÇARƏLƏR

***Tanınmış fitoterapevt Fizuli Hüseynov limfa vəzilər və onların mövcud problemləri barədə əhatəli məqalə ilə çıxış edib. Məqalədə qeyd olunur ki, limfa vəziləri, əsasən oynaq nahiyyələrində yerləşən və belə deyək hər oynağın başlanğıc və son nöqtələrində bir qapı rolunu oynayaraq bədənimizi müxtəlif viruslardan, mikroblardan, şiş hüceyrələrindən və sairələrdən qoruyur.***

Əgər limfa vəzisi şişibsə deməli, həmin vəziyə yaxın yerlərdə bir problem (yəni iltihablanma) var, limfa vəziləri boş-boşuna şişməzlər. Normalda limfa vəziləri 1-1,5 sm aralıqdan artıq şişibsə, bu vəzin şişməsi artıq baş vermişdir. Çox hallarda adi soyuqlama nəticəsində vəzilərdə şişmələr olur, sonra yenə əvvəlki vəziyyətə qayıdırlar. Məsələn boğazgəlmələrdə çənəaltı limfa vəziləri şişir, ağciyər xəstəliklərində qoltuqaltı vəzilər şişə bilir və s.

Amma bəzi vaxtlar limfa vəziləri daha böyük ölçülərdə, məsələn 5-6 sm və daha çox şişə bilir. Bu zaman əl ilə basdıqda ağrı olmur, belə şişlər daha çox xərçəng şişlərinə aid etmək olur ki, belə hallarda təcili diaqnozu dəqiqləşdirmək lazımdır.

Çox hallarda limfa vəzilərinin şişmiş yerinə görə müalicə etmək olur, məsələn çənəaltı nahiyyədə vəz şişibsə bu ağız boşluğundan və boğazgəlmələrdən ola bilir. Onda ağız boşluğu və boğaz iç tərəfdən gündə 3 dəfə 30 qram propolis, 200 qram bal və 2 xörək qaşığı ud hindi qarışımlı məcunla gündə 3 dəfə silinməlidir. Ağızda və boğazda iltihablanma keçən kimi limfa vəziləri də kiçiləcəkdir. Qoltuqaltı vəzilər şişibsə ağciyərləri yoxlatdırın. ( Qadınlarda süd vəzilərində kista vəya şiş xəstəliklərindən hər hansı biri olarsa ondada qoltuqaltı vəzilərin şişməsi olur.) Bu bronxit, pnevmoniya, vərəm, sarkaidoz və s. başqa xəstəliklər nəticəsində şişə bilər ki, saydığım hər bir xəstəliyin ayrı-ayrılıqda müalicələri olunmalıdır.

Bəzi adamlarda limfa vəziləri daha tez-tez şişir ki, deməli, belə insanların immun sistemləri zəifdir, immuniteti yüksəltmək lazımdır.

İmmunitet üçün qarışımın resepti:
Zəncəfil - 40 qram
Qarazirə - 40 qram
Ud hindi - 40 qram
Güldəfnə (hilba) - 40 qram
Jenşen - 40 qram
Propolis - 50 qram
Bal - 1 kq

Deməli bitkilərin hamısı quru olmalı qəhvəüyüdəndə üyüdüb toz formasına salınmalı, propolisi 1 gün soyuducunun buzxanasında saxlayıb sonra sürtkəçdən keçirib hamısını bir birinə qarışdırıb gündə 3 dəfə yeməkdən 30 dəq əvvəl 1 çay qaşığı yemək lazımdır.

Bəzən limfa damarlarında durğunluqlar əmələ gəldikdə o zaman damarlarda da şişmələr, qalınlaşmalar əmələ gəlir (məsələn, kürəkdə qulunc olması). Belə hallarda limfa damarlarını güclü təzyiqlə masaj etmək olmaz. Yaxşı olar ki, 1-2 çay qaşığı pul bibəri 100 qram zeytun yağına qarışdırıb yavaş-yavaş masajla başlayıb, sonra dərin masaj olunsun. Əl altında dərinin tam boşalması və qızarması hiss olunmalıdır, bu zaman damarlardakı durğunluq keçir və damarlar işləməyə başlayır.

Bəzi hallarda limfa damarlarının daxilində qapaqların iltihablaşması nəticəsində limfa damarları həddindən artıq şişir. Bəzən insanın ayağı o qədər şişir ki, ayağın ölçüləri qarın ölçülərindən çox olur, buna fil xəstəliyi deyilir.Fil xəstəliyinin müalicəsi olmasa da gündə 1 çay qaşığı ud hindi tozunu, 1 stəkan qaynar suya qarışdırıb gündə 3 dəfə yeməkdən əvvəl 1 stəkan içmək lazımdır. Və ya gündə 3 dəfə yeməkdən 30 dəq əvvəl 1 çay qaşığı ağıza atılır üstdən 1 stəkan su içilir. Ayaqları isə qarazirə yağı ilə gündə 1 dəfə aşağıdan yuxarıya doğru sığallayaraq masaj etmək lazımdır. Bunu ən azından 3 ay etmək lazımdır. Belə xəstələr üçün limfastaz aparatı da vardır (fizioterapiya kabinetlərində olur).

Ümumiyyətlə, vücudumuzda, böyük qan dövranında, qaraciyərdə, böyrəklərdə problem varsa mütləq bunlar özünü limfa vəzilərində və limfa damarlarında biruzə verəcəkdir. Ona görə də hər 3 aydan bir hicama etdirməklə həm böyük qan dövranı pozğunluqlarını, həm də limfa vəzilərinin şişməsinin qarşısını alır. Çünki hicama vaxtı iltihablanmış qanın götürülməsi və vəzilərin həm damarların, həm də bu iltihabı bədəndən təmizləyən qaraciyərin və böyrəklərin işini rahatlaşdırır.




Əgər gündə ən azından səhər acqarına 1 orta xörək qaşığı qarazirə yağı içsəniz, bu immuniteti artırmaqla yanaşı bədənin allergenlərə dirənişini də artırar. Sarımsaq limfa vəzilərinin böyüməsi zaman faydalıdır. Zəncəfil, ud hindi, qarazirə, boymadərən, gülümbahar, andız, jenşen, çobanyastığı, biyankökü kimi bitkilər həm immun sistemini gücləndirir, həm də istifadə zamanı limfa vəzilərinin böyüməsinin qarşısını alır.

# Dərsliklər texnologiya vasitələri ilə əvəz olunacaq?



***"Birmənalı şəkildə dərslikləri texnologiya vasitələri əvəz edə bilməz". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov bildirib.***

Onun sözlərinə görə, texnologiyalar təbii ki, dərsliklərə dəstəkverici, bütünlükdə prosesə bu və ya digər formada kömək ola biləcək vasitələrdir: "Ümumiyyətlə, söhbət ondan gedir ki, yeni texnologiyalar meydana gəldikcə, təkmilləşdikcə cəmiyyətdə bir çox suallar yaranır. Yadınızdadırsa, kitabların, dərsliklərin texnologiya vasitələri ilə əvəz olunması ilə bağlı müzakirələr aparılıb. Bu zaman kitab çapına ehtiyac olmadığı, bunun ağaclara da zərər verdiyi bildirilib. Bu proses ekologiyaya zərbə deməkdir. Yeni texnologiyalar-smartfonlar, planşetlər dərslikləri əvəz edə bilər. Lakin bu tamamilə yanlış bir fikirdir. Kitabı əvəz edə biləcək heç bir vasitə ola bilməz. Kitabın texnologiya vasitəsilə ilə əvəz olunması ilə bağlı araşdırmalar aparılıb, tədqiqatların nəticələri var. Bəlkə də nə vaxtsa ola bilər, amma buna inanmıram. Çünki kitabdan birbaşa biliyi əldə etmək tamam fərqli bir təsirə malikdir. Bu baxımdan dərsliklər olmalıdır. Texnologiylar yalnız əlavə dəstək ola bilər. Amma birmənalı olaraq gələcəkdə necə olacaq bu məchuldur. Bununla bağlı gəlcəkdə danışıla bilər. Uzun illərdir bununla bağlı müzakirələr gedir, lakin son olaraq mütəxəssislər dəyişdirməmək qərarına gəlirlər".

***Səbinə Hüseynli***

# "Sağlamlıq üçün 10 min addım" əfsanəsi



ABŞ alimlərinin yeni araşdırması, tez-tez işlədilən "sağlam həyat üçün 10 min addım" ifadəsinin doğru olmadığını ortaya çıxarıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, araşdırmanın nəticələri göstərdi ki, sağlam addımların sayı yaşa görə dəyişir. Tədqiqata görə, 60 və daha yuxarı yaşlı böyüklər üçün tələb olunan maksimum addım sayı 6000-8000, yeniyetmələr üçün isə 8000-10000 addımdır. Massaçusets Universitetindən Amanda Paluk, "Müəyyən yaş qrupları üçün bu qədər addımın atılması ölüm riskini artıra bilər" deyib.

***Leyla Həsənəliyeva***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**